# Azərbaycan Milli Dirəniş Təşkilatının Strateji Sənədi

İkinci nəşr



# Mündəricat

**Giriş** 4

**Birinci Bölmə**
Fikri əsaslar və təşkilatın tarixi 9
Təşkilat sistemi və liderlik 15

**İkinci Bölmə**
Ölkənin və zülmə məruz qalan millətlərin cari vəziyyətinin təhlili 18
Çətinliklərin və imkanların müəyyən edilməsi 26

**Üçüncü Bölmə**
Bir çıxış yolu olaraq, Federalizm 34
Federal İran Respublikasının siyasi quruluşu 36
Ştat hökumətləri 37
İslam Respublikası rejimindən keçid dövrü 39

**Dördüncü Bölmə**


| | |
|---|---|
| Dəyərlər və meyarlar | 43 |
| Sekulyarizm | 44 |
| Dil | 46 |
| Milli coğrafiya | 48 |
| Bayraq | 49 |
| Din və məzhəb | 50 |
| Mədəniyyət və milli kimlik | 51 |
| İqtisadiyyat | 53 |
| Qüvvələrin müstəqilliyi və ayrılması | 60 |
| Davamlı inkişaf və ətraf mühit | 61 |
| Sosial ədalət | 64 |
| Azlıqların, fərdlərin və cəmiyyətin hüquqları | 66 |
| Qadın və uşaq hüquqları | 69 |
| Peşə və həmkarlar ittifaqı hüquqları | 72 |
| Təhlükəsizlik | 73 |
| Plüralist və ortaq demokratiya | 75 |
| Təhsil | 76 |
| İnformasiya və medianın sərbəst hərəkəti | 77 |
| Cinsi azlıqlar | 79 |
| Heyvanların hüquqları | 81 |

## Giriş

İnsan tarix boyu öz insani ləyaqətini bərpa etmək arzusunda azadlıq və ədalətə çatmaq üçün müxtəlif fikirlərə və ideologiyalara əl ataraq çalışmışdır. Lakin insan bu yolda ən yüksək zirvəyə yalnız ağıl anlayışını insani ləyaqətə bağladıqda çatmışdır. O başa düşdü ki, azadlıq və ədalət rasionalizm ilə birləşdiyi nöqtədə insan cəmiyyətinə səadət gətirir. Bu günkü müasir sivilizasiya, insanı bütün fərqlilikləri ilə - irq, inanc, din, məzhəb, millət, dil və cinsiyyət kimi heç bir sərt ideologiyanın süzgəcindən keçirmədən qəbul etdi və sağlam düşüncəyə əsaslanaraq insanların hüquq və qanun qarşısında bərabərliyi ideyasını ortaya qoydu. 1948-ci ildə qəbul olunmuş Ümumdünya İnsan Hüquqları Bəyannaməsi, insan ləyaqəti sahəsində bəşər tarixinin ən böyük nailiyyətlərindən biri sayılır. İki dünya müharibəsi və o dövrün acı təcrübəsindən sonra hazırlanan bu beynəlxalq sənəd, bütün insanların əsas hüquq və azadlıqlarını vurğulayaraq hüquqi bərabərlik prinsipinə əsaslanaraq yazılmışdır. Ümumdünya İnsan Hüquqları Bəyannaməsi insan hüquqlarının bütün tərəflərini hərtərəfli şəkildə bəyan etmək üçün bir başlanğıc olmuş və dünyanın hər yerində azadlıq və ədalət axtarışında olanlar üçün bir istinad mənbəyinə çevrilmişdir.

Bu gün böyük addımlara baxmayaraq, insan ləyaqətinin təmin olunması hələ də çətinliklərlə üzləşməkdədir və dünyanın hər yerində oyanmış vicdanlar müxtəlif cəmiyyətlərdə ayrı-seçkilik,

bərabərsizlik, zorakılıq və insanların hüquqlarına təcavüz kimi problemlərlə mübarizə yollarını axtarır. İran da, təəssüf ki, müasir başəri dəyərlərə zidd olan hakim düşüncələr səbəbindən əhalisini cəmiyyətdəki müxtəlif qruplara, təbəqələrə, məzhəblərə və müxtəlif sahələrə qarşı ayrı-seçkilik, təzyiq və daxili istismar, qanunun aliliyinin olmaması və hakimlər qarşısında fərdlərin bərabərsizliyi, geridəqalmış, faşist və totalitar rejimin zülmü kimi böyük çətinliklərlə üz-üzə qoymuşdur.

Biz Azərbaycan Milli Dirəniş Təşkilatı olaraq, humanist və rasional yanaşma ilə müasir bəşər sivilizasiyasının nailiyyətlərinə və zorakılıqdan uzaq durmağa sarsılmaz inancımızla Güney Azərbaycan və İranın digər bölgələri Türkləri, həmçinin zülmə məruz qalan bütün xalqlar və İran xalqı üçün geniş və əsaslı mənada insan ləyaqətini təmin etməyə çalışırıq. Bizim baxışımıza görə dövlət, yalnız və yalnız insanın rifahını yüksəltmək, onun əsas hüquqlarını qorumaq və bütün vətəndaşların istisnasız olaraq ədalət və bərabərliyinə xidmət etmək məqsədilə insan ağlına əsaslanan qanunlara əsaslanmalı bir mexanizmdir. Ümumilikdə dövlət, insanların hüquq və azadlıqlarını qorumaq və ictimai nizamı təmin etmək üçün bir vasitədir. İnsanları və vətəndaşları ikinci dərəcəli prioritetlərə salan ideoloji dövlətlər bir-bir tarixin zibil qutusuna getməkdədir və bugünkü insan demokratik hüquq və azadlıqlarına daha çox agah olaraq, kütlə və ümmətdən fərd və vətəndaş olmağa keçid edərək vətəndaş hüquqları üzərində qurulmuş, azadlıqlarını qorumaqla məhdudlaşdırılmış bir dövlət quruluşuna doğru irəliləyir. Fövqəlbəşər, utopik və sərt ideologiyaların bir-biri ilə münaqişə içində olduğu dövrdən çıxmaq üçün fərdi və ictimai azadlıqları əsas götürərək, vətəndaş cəmiyyətini gücləndirmək, qanunun aliliyini və insan ağlına əsaslanan hüquqları müdafiə etmək tərəfdarıyıq. Başqa sözlə, hökumət, din və ya hər hansı doqmatik, tənqiddən və dəyişiklikdən uzaq qeyri-dini ideologiyadan azad olmalıdır. Beləliklə, hökumətin bütün vətəndaşlarla onların bütün inanc və məzhəbləri, dilləri və mədəniyyətləri ilə olan məsafə və münasibəti eyni olacaq və heç bir qrup qanun çərçivəsində hərəkət etdiyi müddətdə yalnız öz fəaliyyətləri və baxışlarına görə təcrid edilməyəcək və ya azadlıqları məhdudlaşdırılmayacaq. Məhkəmə sistemi insan ağlına və müasir bəşər təcrübəsinə əsaslanmalı və dini, ənənəvi və ya sərt ideologiyalara əsaslanmadan hakimiyyət bölgüsü prinsipinə görə

tamamilə müstəqil olmalıdır ki, vətəndaşların hüquq və azadlıqlarını qoruyan bir sistemə çevrilsin.

İnsan haqları və xalqın azadlıq və ədalət içində yaşamaq haqqına vurğu, qanunun aliliyi və məhkəmə sisteminin müstəqilliyi və tərəfsizliyi, demokratik iştirak və azad və ədalətli seçkilərlə öz taleyini müəyyən etmə haqqı, güclü vətəndaş cəmiyyəti prinsipi çərçivəsində partiyalar və qeyri-hökumət təşkilatlarının azad fəaliyyəti, təbii sərvətlərin qorunmasına diqqət yetirməklə ətraf mühitin qorunması, iqlim dəyişikliyi ilə mübarizə və yaşıl iqtisadiyyat, müasir elmlərə əsaslanan və ideoloji və ya dini baxışlardan azad təhsil sistemi və keyfiyyətli, ədalətli səhiyyə xidməti və iqtisadi inkişaf, sosial təbəqələr arasındakı bərabərsizliyin azaldılması və real mənada azad bazar iqtisadiyyatı - inklüziv qurumlara əsaslanan və demokratik, şəffaf mühitə söykənən, milli maraqlar əsasında qarşılıqlı əlaqə və beynəlxalq əməkdaşlıq prinsipləri ilə yanaşı sülhpərvər xarici siyasət, daxili siyasətdə isə fərdi fərqlərə, o cümlədən dini inanclara, cinsi yönümlərə və cinsiyyətə, sosial və peşə təbəqələrinə, dil və ləhcələrə, siyasi və ideoloji baxışlara, geyim tərzinə, etnik mənsubiyyət, irq və mədəniyyətə, həyat tərzi və sosial və ailə fərqlərinə qarşı hökumətin bitərəf mövqedən çıxış etməsi, ölkənin müxtəlif təbəqə və cəmiyyətləri arasında dözümlülük mədəniyyətini genişləndirə və son onilliklərdə davam edən sistematik ayrı-seçkiliklə uzunmüddətli mübarizədə, müxtəlif mədəni və sosial müxtəlifliklərə malik ölkə xalqının birlikdə yaşaması üçün əsas yaratmaqda mühüm rol oynaya bilər.

Məşrutə hərəkatından və ondan əvvəl qərb sivilizasiyasının təzahürləri ilə bu torpağın insanı qarşılaşdığı dövrdən etibarən, Güney Azərbaycan Türkləri və İranın müxtəlif bölgələrində yaşayan digər Türklər və İranın digər zülmə məruz qalan millətləri və icmaları xoşbəxtliyə, tərəqqiyə, rifaha, azadlığa, ədalətə və insani ləyaqətə çatmaq yolunda çox çətin və enişli-yoxuşlu bir yola çıxmışdır ki, bu azadlıq mübarizələrinin bir çox tarixi dövrlərində Azərbaycan İran xalqları üçün öncüllük etmişdir. Məşrutə inqilabında şahın mütləq hakimiyyətini məhdudlaşdırmaq üçün İranın digər xalqları ilə birlikdə Azərbaycan xalqı önəmli bir rol oynadığı kimi, tarix boyunca öz taleyinə sahib çıxmaq hüququ uğrunda da israr etmişdir. Məşrutə inqilabında Azərbaycanın mücahidləri konstitusiyaya əlavələrin

yazılması və əyalət və vilayət məclislərinin yaradılmasında təkid edərək, Şeyx Məhəmməd Xiyabaninin hərəkatında isə azadlıq və muxtariyyət ideyalarını Azərbaycan üçün bərqərar etməyə çalışmışdır. Lakin Pəhləvi rejimi hakimiyyətə gəldikdən sonra, Mir Cəfər Pişəvərinin rəhbərlik etdiyi Azərbaycan Demokratlar Hərəkatı ilə Azərbaycanın muxtariyyət və milli öz müqəddəratını təyin etmə hüququ daha qabarıq şəkildə vurğulandı. Həm Qacar Türklərinin hələ faşizmin ölkəyə kölgə salmadığı dövrdəki hakimiyyətinin son illərində, həm Pəhləvi rejimlərinin birinci və ikinci dövrlərində, həm də qaranlıq İslam Respublikası dönəmində Azərbaycan azadlıqsevərləri demokratiya uğrunda və öz taleyinə sahib çıxmaq mübarizəsindən vaz keçməmişdir. İndi isə İslam Respublikasının zülmkar və müstəmləkəçi hakimiyyətinin təxminən yarım əsrlik hökmranlığından sonra, Azərbaycan Milli Hərəkatı Məşrutə hərəkatındakı Azərbaycan mücahidləri, Şeyx Məhəmməd Xiyabaninin hərəkatındakı demokratlar və 1979-cu ildə baş qaldıran Müsəlman Xalq Hərəkatının mübarizlərinin bayrağını qaldırmışdır və bu mübarizə hələ də davam edir.

Azərbaycan müasir tarixində çoxmillətli İran üçün həmişə demokratiya və öz taleyinə sahib çıxmaq prinsiplərini arzu etmişdir.

# Birinci Bölmə

## Fikri əsaslar, tarixçə və Təşkilatın strukturu

Azərbaycan Milli Dirəniş Təşkilatı 19 mart 2006-cı ildə Güney Azərbaycanda yaranmış və quruluş bəyanatında Azərbaycan Milli Hərəkatı çərçivəsində milli və mdəni mübarizəsini təşkil etmək üçün təşkilatlanmanın zərurətini vurğulamışdır. Təşkilatın təsisçiləri ölkə daxilində həmfikirləri, təcrübəli şəxslər, tanınmış ekspertlər və fəallarla məsləhətləşərək, nizamlı və möhkəm bir təşkilat yaratmaq ideyasını irəli sürdülər. Azərbaycan Milli Dirəniş Təşkilatının yaradılmasından əvvəl, Güney Azərbaycanın siyasi fəalları on ildən çox bir müddət öncə siyasi təşkilatlar qurmağa başlamış və Güney Azərbaycan Milli Hərəkatında təşkilatlanmış, dinamik bir siyasi fəaliyyətin vacibliyini hiss etmişdilər. Bununla belə, zaman keçdikcə və Azərbaycanın Milli Hərəkatının ölkə və regiondakı dəyişən tələbləri fonunda, təsisçilər digər siyasi təşkilatlardan fərqli xüsusiyyətlərə malik bir təşkilat qurma ehtiyacını müəyyən edib bunu həyata keçirdilər.

Əvvəlki dövrdə, 90-cı illərin əvvəlində Azərbaycan Milli Hərəkatı özünün güclü mədəni xüsusiyyətlərinə uyğun olaraq, ölkə qanunları çərçivəsində tələblərə söykənən və mədəni-vətə fəaliyyətlərə üstünlük verən bir yol seçmişdi. Lakin İran İslam Respublikasının Güney Azərbaycandakı vətəndaş cəmiyyətinin fəaliyyətinə totalitar yanaşması və vətəndaş cəmiyyətinin fəallarını təqib etməsi zamanla Azərbaycan Hərəkatını daha tələbkar və islahatçı yanaşmadan siyasi

mübarizə yoluna keçməyə məcbur etdi. Azərbaycan Milli Hərəkatı geniş fikri və ideoloji spektri ilə diqqət çəkir və bu müxtəliflik bu hərəkatın plüralist güc nöqtələrindən biri kimi dəyərləndirilir. Lakin İran İslam Respublikası və o dövrdəki islahatçı və müxalif qüvvələrin Azərbaycan fəalları və tələblərinə laqeyd münasibəti Azərbaycan Milli Hərəkatının elit fəalları arasında daha çox siyasi fəaliyyət və milli hüquqların təminatı üçün peşəkar mübarizə ehtiyacını ortaya çıxardı. Azərbaycan Milli Dirəniş Təşkilatı, təşkilati və peşəkar fəaliyyətin vacibliyini anlayaraq, məramnaməsində qeyd olunduğu kimi özünü Azərbaycan Milli Hərəkatının bir hissəsi kimi təsvir edir və hərtərəfli mədəni və siyasi mübarizənin zəruriliyini vurğulayır.

Rejimin təhlükəsizlik qurumlarının milli fəallara və onların sülhpərvər və vətəndaş fəaliyyətlərinə çoxsaylı təzyiqləri Babək qalasında milyonlarla insanın qatıldığı qurultaylara olan yanaşmada özünü aydın şəkildə göstərdi. İran İslam Respublikasının əleyhinə olan siyasi cərəyanlar və daxildəki islahatçılar tərəfindən boykot və təcrid yanaşması, Təbriz Universiteti şəhərciyində baş verən hadisələr Azərbaycan milli fəallarını düşünməyə vadar etdi və nəticədə İran və regionun şəraitinə dair yeni bir anlayış formalaşdırdı. Bu da Azərbaycan üçün milli hüquqlar uğrunda mübarizəni universal başər hüquqları çərçivəsində yenidən nəzərdən keçirmək fikrini gücləndirdi.

Azərbaycan Milli Dirəniş Təşkilatının təsisçiləri İslam Respublikasının şəraitini və onun totalitar xüsusiyyətlərini analiz edərək, ölkədə hökm sürən təzyiq və siyasi qətllər, xüsusilə də professor Məhəmmədtağı Zehtabinin öldürülməsi ilə bağlı 90-cı illərdəki təcrübələrini nəzərə alaraq, uzunmüddətli və çətin siyasi mübarizə üçün təhlükəsizlik boşluqlarını azaltmaq və təşkilatın dayanıqlığını artırmaq məqsədilə gizli mübarizə yolunu seçdilər. Bu mübarizə üsulu, daha çox açıq mədəni mübarizəyə və sistemsiz fəaliyyətlərə əsaslanan Azərbaycan Milli Hərəkatı üçün qeyri-adi görünürdü. Buna baxmayaraq, Azərbaycan Milli Dirəniş Təşkilatı artıq iki on ilə yaxındır ki, həm daxildə, həm də xaricdə "Azərbaycan Vətəni" və "Türk Milliyyəti" prinsipləri əsasında öz mübarizəsini davam etdirir.

Azərbaycan Milli Dirəniş Təşkilatı varlığını elan edən bəyanatında milli öz müqəddəratını təyin etmə hüququ uğrunda mübarizəyə,

həmçinin regional və dünya şəraitinin təhlilinə və rejimin təzyiqlərinə işarə edərək, müasirlik və elmi yanaşma prinsiplərinə əsaslanan milli mübarizənin vacibliyini vurğulamışdır. Təşkilat, siyasi mübarizə mərhələsinə keçməyi, sistematik, koordinasiyalı və nizamlı fəaliyyətin yalnız təşkilatlanma və partiya fəaliyyəti ilə mümkün olduğunu dəyərləndirmişdir.

> *"Tarixin bu qədər həssas bir mərhələsində milli mübarizələrə müasir və elmi infrastrukturdan istifadə etmədən addım atmaq mümkün deyil və bu da milli ideologiyaların nəzəri əsaslandırılması və xalqın mübarizəsini təşkilatlandırmaq üçün nizamlı və sistematik partiya və təşkilatların yaradılması şərtidir."*

Təşkilatın varlıq bildirmə bəyanatında təsisçilər, milli hərəkatın həmin tarixi mərhələsində *"nizamlı və sistematik partiya və təşkilatların"* mövcudluğunun *"milli mübarizənin istiqamətləndirilməsi"* üçün vacib olduğunu vurğulamış və belə bir təşkilatların olmaması halında *"hakimiyyətin mübarizələri yatırması və yoldan çıxarması"* üçün imkanlar yaranacağını düşünmüşdülər.

2006-cı ildə Azərbaycan Milli Dirəniş Təşkilatının təsisçiləri altı bənddə təşkilatın məqsədləri, strategiya və taktikasını qısa şəkildə qeyd etdilər. Bu bəndlərin təhlili göstərir ki, *"milli öz müqəddəratını təyin etmə hüququnun təmin edilməsi uğrunda mübarizə"* və *"Güney Azərbaycanın ərazi bütövlüyünü qoruma mübarizəsi"* təşkilatın əsas məqsədləri arasında yer alır. Təsisçilər özlərini Milli Hərəkatın bir hissəsi kimi görərək, bu hərəkatın milli dəyərlərinə sadiq olduqlarını bəyan etmişlər. Təşkilatın strateji əsasları arasında "gizli və yarı-açıq mübarizə", "demokratik və dinc mübarizə prinsiplərinə sadiqlik" qeyd olunmuşdur. Ümumi strategiyanın tərifində isə təşkilatın "Güney Azərbaycanın daxilində gənc qüvvələrin cəlb edilməsi, yetişdirilməsi və kadrların hazırlanması" və "cəmiyyətin müxtəlif təbəqələri arasında milli müqavimət və geniş mübarizəyə dəstək üçün dinamik bir koordinasiya yaradılması" kimi fəaliyyətlərini "aşağıdan yuxarıya güclənmə prinsipi" əsasında nəzəri əsaslandırmışdır. Gizli mübarizə tərzi həm strategiya, həm də taktika kimi nəzərdən keçirilə bilər ki, ölkə və regionun dəyişən şərtlərindən asılı olaraq dəyişə bilər. Lakin təşkilatın dinc mübarizə strategiyasına əsaslanaraq sosial hərəkatın genişlənməsi üçün

"təhlili, tədris və strategiya kitabçalarının və xəbər nəşrlərinin yayılması" dəstəkçilər və ictimaiyyətlə əlaqə yaratmaq üçün əsas üsul kimi göstərilmişdir.

Təşkilatın ideoloji əsasları, Qacar dövründən bəri Azərbaycan Türklərinin Qərb sivilizasiyası ilə qarşılaşdığı və modernizmi anlamağa çalışdığı dövrdən indiyə qədər olan tarixi və müasir vəziyyətin təhlilini və nəhayət, *"qanuni müdafiə hüququ"* və *"milli öz müqəddəratını təyinetmə hüququ"*nun Güney Azərbaycan Türk Milləti üçün əhəmiyyətini ehtiva edir. Direniş Təşkilatının ideoloji əsaslarını öyrənərkən, təsisçilərin baxış bucağından Pəhləvi dövrünün başlanğıcı və ondan sonra İslam Respublikası dövrü Azərbaycan və qeyri-fars millətləri üçün milli zülm, Azərbaycan Türklərinin *"azəri dili və kimliyi"* adı altında təhrif olunması, fars kimliyinə əsaslanan geridə qalmış və irqçi hakimiyyət sistemi, qeyri-fars kimliklərinin assimilyasiyası ilə eyni mənanı kəsb etdiyini görürük.

Azərbaycan Milli Direniş Təşkilatının məramnaməsində vurğulanır ki, *"Azərbaycan iki parçalanmış bir vətəndir"* və Azərbaycan Türk milləti bu tarixi ədalətsizliyin necə aradan qaldırılacağı barədə gələcəkdə qərar vermək haqqına malikdir.

Azərbaycan Milli Direniş Təşkilatının məramnaməsi təşkilatın mübarizə strategiyası və taktikasını varlıq bildrimə bəyanatında qeyd olunanlardan daha geniş şəkildə izah edir. *"Güney Azərbaycanda Türk xalqı arasında milli oyanışın təbliğ və təşviqi"* və *"Güney Azərbaycanda Türk xalqının müxtəlif sosial təbəqələri arasında milli qürur və birliyin yaradılması"* təşkilatın strateji məqsədlərinin əsas maddələri kimi qeyd olunub. Güney Azərbaycanın Türkləri və İranın müxtəlif bölgələrində yaşayan Türklər on illərdir ki, irqçi təhqirlərə və təzyiqlərə məruz qalıblar ki, öz kimliklərindən imtina edərək *"vahid aryan xalqı"*na assimilyasiya olsunlar.

Onilliklər ərzində edilən təhqir, təzyiq, məhv etmə, repressiya və qadağalar məqsədli şəkildə onların milli özünə inamını hədəf alaraq, xalqın cəmiyyətinə, mədəniyyətinə və vətəninə olan inanc və qürurunu məhv etməyə çalışmışdır ki, nəticədə özünə yad, bölünmüş, zəifləmiş və koloniyalaşmağa, məhv edilməyə hazır bir xalq formalaşsın. Azərbaycan Milli Direniş Təşkilatının təsisçiləri

bu irqçi siyasət və proqramların mahiyyətini dərk edərək, milli şüurun və milli oyanışın artırılması üçün fəaliyyətləri təşkilatın əsas məqsədi kimi qəbul etmişdir. Milli Dirəniş Təşkilatının müxtəlif komitələri mövcud imkanlarla Azərbaycanın tarixi və mədəniyyəti ilə bağlı müxtəlif mövzularda broşürlər, kitablar və CD-lər nəşr edib yayaraq milli qürurun formalaşdırılması, əsl Türk kimliyinə söykənən bir şüurun yaranması və bir xalqın yenidən dirçəlişinə töhfə verməyə çalışmışdır.

Təşkilat tamamilə ölkə daxilində qurulub və təşkilatlanıb. Lakin təsisçilər və siyasi kadrlar yaxşı bilirdilər ki, xarici filiallar olmadan təşkilat yarımçıq qalacaq. Buna görə də liderlər və siyasi kadrlar təşkilatın xarici şöbəsinin yaradılmasına elə ilk illərdən xüsusi diqqət yetirdilər. 2011-ci ildə təşkilatın ilk katibi ictimaiyyətə təqdim edildi və həmin ildən sonra təşkilat xaricdəki məsul şəxslərini şəffaf şəkildə elan edir. Xaricdəki üzvlər müxtəlif Türk ölkələrində, Avropada və ABŞ-da konfranslar və görüşlər təşkil edir, həmçinin Azərbaycanın öz müqəddəratını təyin etmək hüququnun təmin edilməsi üçün lobbiçilik fəaliyyətləri həyata keçirirlər.

Varlığının elan edildiyi və rəhbərlik şurası strukturunun tətbiqinə başlanan ilk vaxtdan təşkilat Azərbaycanın siyasi fəalları tərəfindən diqqətlə izlənilib. Kollektiv düşüncə və qərar qəbuletmə üsulu təşkilat üçün önəmli məsələlərdən biridir. Milli Dirəniş Təşkilatında sözçü və katib mövqeləri də daxil olmaqla bütün vəzifələr müəyyən müddətlik seçkilərlə təyin olunur və bu, təşkilatın canlı, demokratik bir struktura sahib olduğunu göstərir. Təşkilatın hər hansı bir pilləsindəki üzvlər mühüm qərarlarda səs hüququna malikdir və rəhbərlər üzvlərin fikirlərini, təkliflərini və tənqidi qeydlərini toplayaraq Mərkəzi Şuraya çatdırırlar.

Ölkə daxilində Azərbaycan Milli Dirəniş Təşkilatı ölkənin siyasi və ictimai şəraitini nəzərə alaraq gizli şəkildə təşkilatlanmışdır; təşkilatın üzvləri hər hansı bir şəkildə üzv olduqlarını açıqlamaqda ciddi qadağalarla qarşılanırlar. Təşkilat varlıq bildirmə bəyanatında qeyd etdiyi kimi özünü Milli Hərəkatın bir hissəsi kimi görür və “milli hərəkatın müxtəlif təşkilatları və təbəqələri arasında əlaqə və birlik yaratmaq” üçün çalışır. Təşkilatın fəaliyyəti də bu iddianı dəstəkləyir; təşkilat heç vaxt Milli Hərəkatın bütövlükdə təmsilçisi olmaq iddiasında olmayıb, əksinə, müxtəlif təbəqələr arasında

əməkdaşlıq üçün təşəbbüskar olub və hətta bəzi hallarda bu istiqamətdə öncüllük edib.

Təşkilat həmişə Milli Hərəkatın əsas məqsədlərini praqmatik yanaşma ilə həyata keçirib və heç vaxt Milli Hərəkatın milli ideyasından uzaqlaşmayıb. Praqmatizm həm ölkə daxilində, həm də xaricdə, o dövrdəki siyasi atmosferi nəzərə alaraq, bu siyasi quruluşun bütün pillələrində əsas prinsip kimi qəbul olunmuşdur. Təşkilat, Azərbaycanın Milli Hərəkatının təbliğatını və inkişafını dəstəkləmək məqsədilə analitik bəyanatlar yayır, Araz News internet televiziyası, Direniş Səsi, Direniş Gəncliyi, Torpaq nəşrləri və 2018-ci ildə hazırladığı Güney Azərbaycanın Gələcəyi üçün Strateji Sənəd kimi media, nəşr və nəzəri fəaliyyətlərini həyata keçirir. Təşkilatın nəzəri fəaliyyəti təhlil edildikdə, regionda, beynəlxalq və daxili mühitdə baş verən dəyişikliklərə təşkilatın realist yanaşması və hadisələrə obyektiv baxışı nəzərə çarpır.

Qeyd etmək lazımdır ki, Strateji Sənədin ilk versiyası Azərbaycan Milli Direniş Təşkilatının fəaliyyət yol xəritəsi və çərçivəsi kimi 2018-ci ilin yayında dərc edilmişdir və azad və demokratik Azərbaycan üçün Direniş Təşkilatının hərtərəfli inanclarını əks etdirirdi. “Strateji Sənəd”in ilk versiyasının dərc edilməsindən 6 ildən çox vaxt keçdikdən sonra, bölgədəki siyasi və sosial dəyişiklikləri nəzərə alaraq və Azərbaycan cəmiyyətinin milli maraqlarını və dəyişikliklərini nəzərə alaraq, “Azərbaycan Milli Direniş Təşkilatının Strateji Sənədi”nin yenilənməsi və nəzərdən keçirilməsi qaçılmaz olmuşdur.

## Təşkilat sistemi və liderlik

Azərbaycan Milli Dirəniş Təşkilatının ideoloji və inanc əsasları, milli hərəkatın fəallarının siyasi mərhələyə keçməyi zəruri hesab etmələrinə əsaslanaraq, tarixi bir zərurətdən irəli gəlib. Təşkilatın təsisçiləri, milli hərəkatın məqsədlərinə nail olmaq üçün siyasi bir təşkilatın yaradılmasının vacib olduğunu başa düşərək, İran və Güney Azərbaycan üzərində hökm sürən siyasi vəziyyəti nəzərə alaraq, Güney Azərbaycan şəhərlərində gizli görüşlər keçirib, birgə düşüncə, məsləhət və elmi, praktiki fəaliyyətlər vasitəsilə müəyyən xüsusiyyətlərə malik siyasi bir təşkilatın yaradılması prosesini başladılar. Bu proses təbii və təkamül yolu ilə irəlilədi; elə ki, rəsmi olaraq varlıq bildirməkdən əvvəl təşkilatın strukturu və üzvləri sistematik şəkildə fikir təbliğatı və praktik fəaliyyətlərlə məşğul olurdular. Tamamilə gizli fəaliyyət dövründən sonra, təsis heyəti təşkilatın yaradıldığının elan edilməsinə qərar verir və bu, 2006-cı ilin martında baş verir.

Yuxarıda qeyd edildiyi kimi, təşkilat, siyasi fəallar arasında müzakirə və məsləhət prosesi əsasında yaradılmışdır və ilk gündən karizmatik bir şəxsiyyətə və ya siyasi və mədəni bir liderə əsaslanmamışdır. Bu struktur daha sonralar da qorunmuşdur və şura əsaslı rəhbərlik prinsipi təşkilatın əsasını və strukturunun təməlini təşkil edir. Təşkilatda şəxsiyyətin mərkəzə qoyulmaması və müzakirə və səsvermə ənənəsinin köklü olması, dinamik, dəyişkən və elastik bir

strukturun yaranmasına səbəb olmuşdur.

Beləliklə, təşkilatın rəhbərliyi müzakirə prinsipi və şura mərkəzli rəhbərlik əsasında həyata keçirilir. Bununla yanaşı, hər hansı bir qrupda bəzi şəxslərin müəyyən şəxsi xüsusiyyətləri və siyasi mübarizə təcrübələri baxımından daha da önə çıxması təbii bir haldır.

Azərbaycan Milli Dirəniş Təşkilatı fəaliyyətə başladığı iki on illiyə yaxın müddət ərzində şəhər, nəşr, tələbə, gənclər, işçi və qadın komitələrini təşkil etdi ki, bu komitələrdən biri də Qərbi Azərbaycan Müdafiə Komitəsidir. Bu komitə bölgədə terrorizmə qarşı mübarizədə və insanların terrorizmin təhlükələri ilə bağlı məlumatlandırılmasında mühüm xidmətlər göstərmişdir. Şəhər komitələrindən ibarət olan və Təşkilatın Mərkəzi Şurasına bağlı olan komitə üzvləri illər ərzində həm praktikada, həm sahədə, həm də internet məkanında “Topraq” kimi nəşrlər dərc etməklə insanların terror təhlükəsi barədə məlumatlandırılmasında mühüm rol oynamışlar.

Təşkilatın Nəşr Komitəsi illərlə böyük fədakarlıq və risk qəbul edərək Tədqiqat Komitəsi və digər komitələrin əsərlərini çap edib yayma işini öz üzərinə götürmüş, kitablar, jurnallar və broşuraları fiziki olaraq Güney Azərbaycan şəhərlərində yayaraq təşkilatın hiss edilən fəaliyyətini təmin etmişdir.

Təşkilatın nümayəndələri, Azərbaycan Respublikasında, Türkiyədə, Avropada və Amerikada müxtəlif görüşlər, seminarlar, yürüşlər və etiraz toplantılarında iştirak edərək, digər siyasi partiyaların nümayəndələri ilə görüşərək, ölkələrin siyasi şəxsləri ilə əlaqələr quraraq, Güney Azərbaycanın tanınması və orada yaşayan Türk xalqına qarşı həyata keçirilən ayrı-seçkiliklər və ədalətsizliklərin dünyaya çatdırılması məsuliyyətini daşıyırlar.

Dirəniş Təşkilatı, siyasi fəaliyyətlərin şəffaflığına və Güney Azərbaycan vətəndaşlarına hesabat verməyə güclü inanır; lakin totalitar İslam Respublikasının siyasətindən irəli gələn repressiya və basqı şəraiti bunu mümkün etmir. Buna görə də, təhlükəsizlik səbəblərindən ötəri təşkilatın strukturu ilə bağlı məlumatların dərc olunması və üzvlərin tam olaraq tanıdılması mümkün deyil.

# İkinci Bölmə

## Ölkənin və zülmə məruz qalan millətlərin cari vəziyyətinin təhlili

Müasir tarixdə Azərbaycan İranda azadlıq, ədalət, insan hüquqlarının təminatı və inkişaf yolunda qabaqcıl bir ölkə olmuşdur. Azərbaycan azadlıqsevərləri Məshrutə hərəkatına başlayaraq, mütləq hakimiyyətin ləğvi və qanunun aliliyinin təmin edilməsi kimi geniş və hərtərəfli məqsədlərə nail olmaq üçün mübarizə aparırdılar. Bu geniş və hərtərəfli məqsəd, insan ləyaqətini öz fikri və mədəni inkişaf prosesinin mərkəzinə yerləşdirirdi. 1906-1911-ci illər ərzində Azərbaycan, mütləqiyyətlə mübarizəyə paralel olaraq, Təbrizdə "Azərbaycan Əyaləti Əncüməni"nin yaradılması ilə özünü 5 il ərzində idarə etmə qabiliyyətini müasir tarixdə sübut etdi. Azərbaycan Əyaləti Əncüməni və onun alt qurumları olan Vilayət Əncümənləri, mütərəqqi vilayət və şəhər şuraları qanununa əsaslanaraq, xalqın seçdiyi nümayəndələr idi. Bu şura yalnız Azərbaycan Türklərinin taleyini idarə etmə qabiliyyətini göstərmir, eyni zamanda, demokratik bir üsul və Azərbaycanın daxili işlərini idarə etmək haqqını da nümayiş etdirirdi. Bu mühüm tarixi hadisənin baş verməsində Azərbaycan tarixində bənzərsiz bir siyasi və təşkilati liderliyə sahib olan Əli Müsyo və Təbriz Qeybi Mərkəzi, həmçinin Şimali Azərbaycan inqilabçıları ilə birbaşa əlaqədə olan Milli Sərdar Səttərxanın hərbi komandanlığının rolu danılmazdır. Bu, öz növbəsində, möhkəm təşkilati işin əhəmiyyət və təsirini vurğulayır.

Məşrutə inqilabında mərkəzdəki irticaçı hakimiyyətlərin güc strukturları ilə əlaqədə olub onlarla gizli sövdələşmələr edən şəxslər, Məşrutə hərəkatı və ya ümumilikdə azadlıqsevər dalğaya qarşı çıxmışdılar. Bu şəxslər Azərbaycan müasir tarixinin müxtəlif mərhələlərində xalqın azadlıq və ədalət tələbi ilə başladığı hərəkətlərə qarşı dayanıblar. Bu şəxslər və irticaçı güclərə bağlı olan qurumlar, rüşvət və güc əsasında olan əlaqələrdən dolayı, həmişə şəxsi maraqlarını xalq hərəkatlarına qarşı qoymuş, mütləqiyyət və diktatura ilə azadlıqsevərlərə qarşı bir cəbhədə dayanmışlar.

Azərbaycan Əyaləti Əncüməni və onun altında olan vilayət şuraları, o cümlədən Ərdəbil, Urmiyə, Sovucbulağ (indiki Mahabad), Xoy, Marağa, Sarab və s. şəhərlərində, demokratik dəyərlər əsasında yeni bir nizam uğrunda mübarizə aparan Məşrutə mücahidləri, yerli irticaçı qüvvələr və mərkəzi istibdadın birləşmiş cəbhəsi ilə qarşılaşdı.

Birinci Dünya Müharibəsi zamanı, qısa müddətə Təbrizi mərkəz seçən və Cəmşid Xan Məcdəlsəltənə Afşar Urumi tərəfindən idarə olunan "İttihad-i İslam" hökuməti Azərbaycanda quruldu (1918). Bu hökumət Azərbaycan Türklüyünün kimliyinə xüsusi diqqət yetirsə də, Birinci Dünya Müharibəsinin nəticələri səbəbindən sona çatdı. Sonradan, Məşrutə hərəkatının liderlərindən biri olan Şeyx Məhəmməd Xiyabani (1920) tərəfindən bir hərəkat başladı. Məqsədi Məşrutə hərəkatının nailiyyətlərini dirçəltmək olsa da, təəssüf ki, bu hərəkat da istibdad qüvvələri qarşısında məğlub oldu.

22 fevral 1921-ci il tarixində Rza xan və Seyid Ziya Təbatəbayi tərəfindən baş verən çevriliş ilə yanaşı, bir xarici gücün planı çərçivəsində, siyasi fəalların və jurnalistlərin həbs edilməsi, işgəncəyə məruz qalması, mütləqiyyət və zorakılığın baş verməsi başlayır. Elə həmin dövrdə və bir qədər öncə, Məşrutə hərəkatının məğlubiyyətindən və ölkədəki ağır vəziyyətdən sonra, millitarist düşüncələr, ifrat fars milliyətçiliyi, İranda millətlərin eyniləşdirilməsi və Türk və ərəb düşmənçiliyi həmin dövrün ziyalıları tərəfindən geniş yayılmışdı. Məsələn, şair Arif Qəzvini *"Türk dili yalnız döymək üçündür, bu dili ölkədən kəsmək yaxşı olar"* kimi misralarda açıq şəkildə bu dilin İranda aradan qaldırılmasını təklif edirdi.

Aryan irqçiliyi düşüncələrinin yayılması, dil və irq eyniləşdirilməsi,

Türk və ərəblər kimi milli/etnik qrupların İranın bütün bədbəxtliklərinin səbəbkarı kimi günahlandırılması, İkinci Dünya Müharibəsindən əvvəl Almaniyadakı antisemitizm düşüncələri ilə çox oxşarlıq təşkil edirdi. Təəssüf doğuran məsələlərdən biri də Pəhləvi hakimiyyətinin yalnız Azərbaycan və Türk əsilli vətəndaşların kimlik, mədəni və siyasi hüquqlarına qarşı ayrı-seçkilik və repressiya ilə kifayətlənməyib, həm də Türk dövlətlərinin tarixi irsini sistematik şəkildə məhv etməyə başlaması idi. Bu dövrdə Tehranda və Azərbaycanda, xüsusilə Təbrizdə Ağqoyunlu, Qaraqoyunlu, Əfşar, Səfəvi və xüsusilə Qacar dövlətlərinə aid onlarla tarixi abidə dağıdıldı. Eyni siyasət cənubdakı ərəb bölgələrində də həyata keçirildi. Bu siyasətin məqsədi İranda yaşayan Türk və ərəb xalqlarının tarixi yaddaşını silmək idi. Bu siyasət İslam Respublikası dövründə də müəyyən şəkildə davam etdirildi.

Hərçənd Pəhləvi rejimi əvvəlcə Böyük Britaniyanın şübhəsiz dəstəyi ilə hakimiyyətə gəldi, lakin tədricən bu rejim Alman nasizminin ideyalarından ilham alaraq, Məmâlik-i Mahrusə (İran) ərazilərində Türk imperiyalarından qalan torpaqlarda faktiki olaraq faşist təkmillətçilik siyasətini tətbiq etdi. Məqsəd, bu imperiyanın fərqli millətlərinin müxtəlifliyini aradan qaldırmaq və o dövrdə Qərbdə yayılmış totalitar ideologiyalardan götürülmüş süni bir millət yaratmaq idi. Birinci Dünya müharibəsindən sonra müharibənin gətirdiyi dağıntı və nizamsızlıq səbəbilə bəzi Avropa ölkələrində totalitar ideyalar xərçəng kimi yayılmağa başladı. Müharibədən məğlub çıxmış Almaniyada və müharibənin nəticələrindən narazı olan İtaliyada nasizm və faşizm kimi totalitar ideyalar formalaşmışdı və Adolf Hitlerin irəli sürdüyü bu ideyalardan ilham alınaraq aryanist ideyaları İran məmləkətlərində də tətbiq edildi.

Hərçənd Pəhləvi rejiminin ideyaları son dərəcə totalitar və dəyişdirilməz idi, lakin o dövrdə Orta Şərqdə, xüsusən də İranda texnoloji imkanlar Avropadakı və Sovet İttifaqındakı totalitar rejimlərdə olduğu kimi maksimum nəzarət və təbliğat aparmağa şərait yaratmadı. Dünyada və regionda əsaslı dəyişikliklər baş verdikcə, Orta Şərq ölkələrində rabitə vasitələrinin artması və modernləşmə prosesinin sürətlənməsi ilə yanaşı, İran məmləkətində irqçi, aryanist və antikpərəstlik yönümlü totalitar ideyaların güclənməsi, Azərbaycan kimi məmləkətlərin statusunun

ləğvi və eyniləşdirmə və assimilyasiya siyasətinin başlanması ilə bir etnikin bütün mədəniyyət elementlərinin digər məmləkətlərə hegemonluq etməsinə səbəb oldu. Bu vəziyyət Qacar dövründəki ənənəvi və mozaik Məmaliki-Məhrusə strukturlarından tamamilə fərqli idi və İranda modernləşmə prosesi qeyri-bərabər, zalım və müstəmləkəçi xarakter aldı.

Mümkündür ki, Rza xan çevrilişi baş verməsəydi və Aryan ideologiyası siyasi gücün ələ keçirilməsi prosesini başlatmasaydı, modernləşmə özünün təbii axarını davam etdirərdi və Türk imperiyalarının fəthləri nəticəsində formalaşan ölkədə yalnız bir millətin başqa millətlərə hegemonluğuna şahid olmazdıq. Bu ölkənin sərhədləri, yalnız keçmişdəki Türk şahları və sultanlarının fəthləri və məğlubiyyətləri əsasında yaranmışdı.

İranın şimalının Sovet İttifaqı tərəfindən işğal olunması Rza Şahın nasizm ideologiyasına dəstək verməsi, Rza Şahın qaçması və müttəfiqlərin işğalına qarşı müqavimət göstərilməməsi, nəticədə İranda Rza Xanın yerinə oğlu Məhəmməd Rza Pəhləvinin keçməsi ölkənin vəziyyətində əsaslı bir dəyişikliyə səbəb olmadı və Pəhləvi rejimi ilk dövrdən bəri izlədiyi ümumi siyasəti sadəcə fərqli taktikalarla davam etdirdi. İrana çevriliş yolu ilə hakimiyyətə gəlmiş Pəhləvi rejimi Məşrutə inqilabına və onun demokratik nailiyyətlərinə biganə qalmış və bu nailiyyətləri heç vaxt rəsmən tanımamışdı. İdeoloji baxımdan tamamilə avtoritar olan Pəhləvi rejiminin mahiyyəti məhdudiyyətlərə, hakimiyyət bölgüsünə və konstitusiyalı monarxiya ideyalarına əsaslanan Məşrutə ideyası ilə əks mövqedə idi. Məşrutə yalnız müsbət mənəvi dəyər baxımından qanuniliyini təmin etmək üçün təbliğ edilirdi və hələ də edilir; lakin bu qanunun həyata keçirilməsi, o cümlədən hakimiyyət bölgüsü, şahın səlahiyyətlərinin məhdudlaşdırılması və əyalət məclisləri heç vaxt Pəhləvi rejimi tərəfindən tətbiq edilmədi. Çünki Pəhləvinin mahiyyəti belə dəyərlərlə ziddiyyət təşkil edir və tamamilə fərqli məqsədlər güdürdü.

Sovet Qızıl Ordusunun İranın şimalını işğal etdiyi illərdə, birinci Pəhləvinin irqçi təzyiqlərindən ciddi şəkildə qəzəblənən Azərbaycan məmləkəti azadlıq və özünüidarə hərəkatını fərqli formada başlatdı və məhz 1945-ci ilin noyabrında – Nasist Almaniyasının təslim olduğu və İkinci Dünya Müharibəsinin sona çatdığı bir dövrdə,

Azərbaycan Milli Hökuməti quruldu.

Qalan sənədlər, Azərbaycan Milli Hökuməti liderlərinin Azərbaycan Türkcəsi mədəniyyətinə və dilinə göstərdiyi əhəmiyyəti açıq şəkildə nümayiş etdirir. Muxtariyyət Azərbaycanda əvvəllər də Məşrutə dövründə və Xiyabani hərəkatında yaşanmışdı və Azərbaycanın azadlıqsevər ruhunun istibdada və irticaya qarşı müqavimətini simvolizə edirdi. Azərbaycanın muxtariyyəti İran tarixində istibdaddan və gerilikdən azad olmaq və bu azadlığı istisnasız olaraq bütün İrana yaymaq üçün bir addım idi.

Azərbaycan muxtariyyəti bütün İrana azadlıq yaymaq üçün bir qala kimi qurulurdu. Lakin, müəyyən dövrlərdə azadlıqsevərlər irtica və gerilik qarşısında ümidsiz olduqda "Azad İrlandiya Yurdu"[1] ideyasını düşünürdülər. Təəssüf ki, 1946-cı ilində 12 dekabr tarixində faşizm tərəfindən xalqımıza o qədər geniş bir qırğın tətbiq edildi ki, uzun illər Azərbaycan ölüm susqunluğuna qərq oldu. 20 min vətənpərvər və maarifçi insanın qırğını və daha çoxunun faşizm və irtica mənfəətinə sürgün edilməsi, həmin dövrdə Azərbaycanın mütərəqqi mübarizələrinə o qədər zərbə vurdu ki, onun təsirləri hələ də görünməkdədir.

1979-cu ildə ariçiliyə əsaslanan antikpərəstlik təmayüllü irtica yerini "Şuubi" adlandırılan bir irticaya verdi. Bu geriçilik

milli məsələlərdə fars hegemoniyası və eyni zamanda şiəlik üzərində qurulan ifrat dini düşüncələrdən ibarət avtoritar ideologiyaların qarışığı idi. 1979-cu il inqilabı, müxtəlif düşüncə sahiblərinin mütləq monarxiyaya qarşı mübarizəsinin bir nəticəsi olsa da, bu hərəkatın bəzi qrupları tərəfindən mənimsəndi. Nəticədə, yalnız mərkəzçi təşkilatlar və axınlar arasında aradan qaldırmalar dalğası başlatmadı, həm də Fars (Tacik) hegemoniyasının davam etdirilməsi və İran daxilində tək millət ideyasının qorunması məqsədi ilə ölkənin kənarlarında, İranda yaşayan xalqların azadlıqsevər hərəkatlarına qarşı bir dalğa yaratdı.

---

*1 Cəfər Mircavad oğlu Pişəvəri: "Azərbaycan, İranın qalan hissəsi ilə birgə Hindistan kimi əsarətdə qalmaqdansa, özü üçün Azad İrlandiya yurdu olmağı üstün tutur."*

Təxminən yarım əsrlik Pəhləvi sülaləsinin hakimiyyətindən sonra məzlum millətlərin müqaviməti inqilabdan sonra Azərbaycanda Xalq Müsəlman Partiyasının öncüllüyü və Ayətullah Kazım Şəriətmədarinin mənəvi rəhbərliyi ilə özünüidarə hüququ uğrunda zirvəyə çatdı. Maraqlıdır ki, bu dəfə də özünüidarə şüarını şüarları arasında daşıyan Azərbaycan, "vilayəti-fəqih" formasında olan yeni bir mütləq hakimiyyət qarşısında dayanırdı. Müsəlman Xalq Hərəkatının milli xarakterə malik olması səbəbindən Xomeyni onu İranın müxtəlif bölgələrindəki milli hərəkatlarla eyni sıraya qoyaraq məhv etdi və daha sonra Tehrandakı müxtəlif siyasi qruplara yönəldi. Hər halda, müasir tarix boyu Azərbaycan demokratiya, azadlıq və qanunun aliliyi məşəlini uca tutmuş və qanunsuz mütləq hakimiyyətə qarşı mübarizəsindən heç vaxt geri çəkilməmişdir.

Tarix sübut edir ki, İran məmləkətləri Pəhləvi dövründə və İslam Respublikasında da itirilmiş azadlıq və öz müqəddəratını təyinetmə hüququ uğrunda daim mübarizə aparmış və mərkəzi hakimiyyətin ən güclü dövrlərində belə zülm və ayrı-seçkilik qarşısında müqavimət göstərmişdir. Azərbaycanın öz müqəddəratına sahib çıxmaq üçün göstərdiyi cəhdlər bir neçə dəfə nəticə versə də, mərkəzi hökumət tərəfindən basdırılıb. Bununla belə, Güney Azərbaycan Türk Millətinin bu son hədəf uğrunda mübarizəsi davam edir. Bu gün İslam Respublikasının dörd onillik hakimiyyətindən sonra İran məmləkətlərindəki millətlər ari faşizmi, dini geriçilik və dini totalitar sistemin hegemoniyasına qarşı müqavimət göstərirlər.

Mir Cəfər Pişəvəri və Ayətullah Kazım Şəriətmədarinin rəhbərliyi altında olan iki hərəkat mərkəzin totalitar düşüncəsi tərəfindən qanla yatırıldı və məhv edildi. Diqqətəlayiqdir ki, bu iki hərəkatın hər ikisi Azərbaycanda Tehranda hakimiyyət dəyişikliyindən sonra baş vermişdir. Birincisi 1-ci Pəhləvi rejiminin devrilməsindən sonra, ikincisi isə 2-ci Pəhləvinin devrilməsindən sonra alternativ qüvvələr tərəfindən yatırıldı. Hər iki hərəkat bəlkə də fərqli dünyagörüşünə malik idi; lakin tələbləri struktur baxımından oxşar idi. Azadlıq, ədalət və öz müqəddəratını təyin etmək hər ikisinin tələbiydi. Bu tələblər Xiyabani hərəkatları və Məşrutə hərəkatının davamında idi. İndi də İranın mərkəzçi müxalifətinin böyük bir hissəsi ehtiyatla İranın məzlum millətlər məsələsindən xüsusən də Azərbaycan məsələsindən yan keçir və ya heç bir məna qatmadan birbaşa olaraq

İslam Respublikası ilə eyni cəbhədə dayanır. Bu məsələlərin təhlili göstərir ki, son yüz ildə mərkəzçi totalitar cəbhənin mövqelərində bir neçə cüzi dəyişiklik olsa da, əhəmiyyətli bir dəyişiklik baş verməyib.

İslam Respublikası dövründə, Azərbaycan qarşısında iqtisadi diskriminasiya, Pəhləvi dövrünə nisbətən daha da gücləndi və aydınlaşdı. İslam Respublikası, açıq şəkildə, qeyri-fars bölgələrinin təbii və insan resurslarını fars bölgələrinin xeyrinə talan etdi. Ərəb bölgələrinin nefti, ölkənin qərbindəki dağlıq ostanların su mənbələri, Azərbaycanın mədənləri və insan gücü, əsasən, ölkənin mərkəzində yerləşən çöl bölgələrinə fars bölgələrin xeyrinə talan edildi və mərkəz ilə ətraf bölgələr arasında böyük iqtisadi fərq yarandı. Bir zamanlar İranın ən inkişaf etmiş vilayəti olan Azərbaycan, resursların talan edilməsi və dövlət investisiyalarının olmaması səbəbindən ciddi bir geriləmə ilə üzləşdi. Elə bu dövrdə Azərbaycanın su ehtiyatlarının yanlış və bəlkə də qəsdən idarə olunması nəticəsində Azərbaycan Urmiya gölünün quruması və ya qurutdurulması kimi həyati bir ekoloji fəlakətlə üz-üzə qaldı. Bu ekoloji fəlakət Azərbaycanın varlıq-yoxluq məsələsi olsa və on milyonlarla insanın həyatı birbaşa təhdid altında olsa da, İran İslam Respublikası bu böhranın həlli üçün heç bir təsirli tədbir görməyib.

Biz inanırıq ki, İranda daxili müstəmləkəçilik, müxtəlif axınların fikir əlaqəsi və əməkdaşlığı ilə formalaşan bir quruluşdur və Azərbaycanın milli azadlıq mübarizəsi müxtəlif istiqamətlərdə irəli aparılmalıdır. İranda daxili müstəmləkəçilik, irqçi ariçi və antikpərəstliyə meyilli irticaçı axınların, dini irticaçı axınların və bu axınların qarşılıqlı olaraq bir-birindən fikir qidalanması ilə yaranan birliyin nəticəsidir. Bu ittifaq hal-hazırda İran İslam Respublikası şəklində, totalitar bir sistem olaraq özünü göstərir.

Azərbaycan Milli Direniş Təşkilatı, İran məmləkətlərində mövcud vəziyyəti təhlil edərək, İran İslam Respublikası və hakim irqçi, müstəmləkəçi qüvvələrə qarşı millətlərin müqavimət cəbhəsini gücləndirmək üçün zülmə məruz qalan millətlərin demokratik cəbhəsinin gücləndirilməsini əsas istiqamətlərdən biri hesab edir. Əslində, zülmə məruz qalan millətlərin demokratik cəbhəsində qüvvələrin birləşməsi və ortaq maraqlar ətrafında həmrəyliyin yaradılması, insan hüquqlarının təmin olunması və zəifləmiş

millətlərin və məmləkətlərin maraqlarını qorumaq baxımından əhəmiyyətlidir. Bu, İranın kənar bölgələrində yaşayan insanların mərkəzçi və totalitar qüvvələr tərəfindən yenidən qətliam və basqıya məruz qalmalarının qarşısını ala bilər. Digər tərəfdən, özünü üstün hesab edən və guya “etnik qruplar” üzərində siyasi və mədəni hakimiyyəti qanuni hesab edən faşist təfəkkürlə paralel mübarizə aparılmalıdır. Bu çərçivədə aydın şəkildə izah etmək lazımdır ki, İranda zülmə məruz qalan millətlərin mübarizəsi azadlıqsevər və ədalət axtaran bir xarakter daşıyır və qarşı tərəfin ona yapışdırmağa çalışdığı etnik millətçilik və irqçilik damğasından uzaqdır.

Təşkilat, BMT-nin Ümumdünya İnsan Hüquqları Bəyannaməsində və beynəlxalq insan hüquqları müqavilələrində qeyd olunan dəyərlərə inanır və yalnız mühafizəkar və ekstremist düşüncələrdən uzaq deyil; həm də bütün sosial təbəqələrin, millətin, dilin, cinsin və təbəqənin müvafiq hüquq konvensiyalarının bütün müddəalarını yerinə yetirməsini əsas məqsədlərindən biri hesab edir. Təşkilat, insan hüquqlarının dəqiq və tam icrasının, o cümlədən İranın sakin xalqlarının öz taleyini müəyyən etmə haqqının reallaşmasının bu torpaqların insanlarına sülh və sabitlik gətirə biləcəyinə inanır. Təşkilat, xarici dünyaya münasibət məsələsində bölgədə sülh, sabitlik və rifahı təmin etmə prinsiplərinə riayət edir. Bunun üçün, Yaxın Şərq ölkələri arasında əməkdaşlığın artırılmasına, münaqişələrin aradan qaldırılmasına və sülhün yaradılmasına kömək edən siyasətləri dəstəkləyir.

Yuxarıda qeyd olunanlara əsasən, təşkilat, Güney Azərbaycanın öz taleyini müəyyən etməsi və milli hökumət qurulmasını, İranın əziyyət çəkən xalqlarının demokratik cəbhəsinin güclənməsindən və bu xalqların azadlığından ayrı görmür. Həmçinin, təşkilat, İranın mərkəzçi qüvvələrinə qarşı azadlıq mübarizəsini gücləndirmək məqsədilə, ifadə azadlığı, qadınlar, işçi, müəllim və tələbə tələbləri üzrə hər cür demokratik və ədalət tələb edən cəhdləri dəstəkləyir.

## Çətinliklərin və İmkanların Müəyyənləşdirilməsi

Bir yol xəritəsi tərtib etmək üçün, mövcud vəziyyəti müxtəlif istiqamətlərdən nəzərdən keçirmək və sosial hərəkatın qarşısındakı çətinliklər və imkanları dəqiq araşdırmaq lazımdır.

Hazırda ölkədəki sistem, yəni İslam Respublikası, əksər hallarda totalitar bir hökumət sisteminin xüsusiyyətlərini daşıyır. Rejimin ölkədə sosial və siyasi nəzarəti gücləndirməyə, liderin hökumətdəki rolunu ön plana çıxarmağa olan güclü meyli, dəyişdirilə bilməz və sarsılmaz bir ideologiyanı davam etdirməsi, mədəniyyətin homojenləşdirilməsi, sərhədsiz güc arzusuna malik olması, ideoloji təbliğat üçün böyük vəsaitlərin xərclənməsi və əlbəttə ki, müxaliflərin təqib və terror edilməsi totalitar rejimlərin əsas və ortaq xüsusiyyətləridir ki, bunlar İran İslam Respublikası üçün də keçərlidir.

İslam Respublikası, beynəlxalq arenada, dünyada və xüsusilə Yaxın Şərqdə terror fəaliyyətlərini dəstəkləyən bir oyunçu kimi tanınır. Rejim, qeyri-adi bir sistem olaraq, bölgənin və dünyanın ölkələri arasında iqtisadi rəqabətə daxil ola biləcək və qlobal normalara əsaslanaraq öz yerini müəyyən edə biləcək xüsusiyyətlərdən məhrumdur. Buna görə də, bölgədə hegemonluq yaratmaq və maraqlarını təmin etmək üçün qeyri-sabitlik yaratmaqla və rəqiblərini zəiflətməklə, terror təşkilatlarına maddi və silah dəstəyi

göstərərək fəaliyyət göstərir.

İslam Respublikasının fəaliyyətlərindən zərər çəkən ölkələr, xüsusilə Qərb ölkələri, İranın terror fəaliyyətlərinə qarşı diplomatik izolyasiya siyasətini tətbiq edir və İslam Respublikasına qarşı beynəlxalq səviyyədə sanksiyaları artırır. Bu sanksiyaların məqsədi, İranın terror təşkilatlarına maliyyə və logistika dəstəyini məhdudlaşdırmaqdır. Qərb ölkələri, yerli oyunçularla əməkdaşlıq edərək, İranın terror fəaliyyətlərinə qarşı ortaq bir strategiya yaratmağa çalışırlar. Bu tədbirlər, regional oyunçular arasında koordinasiyanı gücləndirmək, təhlükəsizliyi artırmaq və bölgədə sabitliyi təmin etmək məqsədini güdür. Ancaq bölgədəki mürəkkəb siyasi dinamikalar və İslam Respublikasının təsiri, bu mübarizəni bir qədər çətinləşdirir. Bu səbəbdən, Qərb ölkələri və eləcə də bölgə ölkələri, bölgədə qarşıdurma və gərginliyi azaltmaq və rejimin proksi terror qruplarının təsirini məhdudlaşdırmaq üçün uzunmüddətli və hərtərəfli strategiyaların hazırlanmasına ehtiyac duyurlar.

Ölkənin idarəetmə sistemində qanunverici, icraedici və məhkəmə hakimiyyətləri adətən rəhbərin əmrini yerinə yetirir və müstəqil nəzarət mexanizmləri mövcud deyil. KİV-lər və təhsil müəssisələri hakimiyyətin ideologiyasını yaymaq və cəmiyyəti manipulyasiya edib ictimai fikri yönləndirmək üçün istifadə olunur. Bütün totalitar rejimlərdə olduğu kimi, İslam Respublikası da cəmiyyətin mədəni və etnik/milli müxtəlifliyini boğmaq üçün çalışır və xüsusi bir milli kimlik və ya ideologiyanı təşviq edir, bu kimlik ətrafında birliyi stimullaşdırır. Həmçinin, zorakılıq, qanunsuz həbs, işkəncə, adam oğurluğu və mədəni və siyasi fəalların həbsxanalara doldurulması və kütləvi edamlar kimi metodlardan istifadə edilir, bu da totalitar rejimlərin ortaq basqı və terror üsullarıdır. Müxtəlif sahələrdə, məsələn, mətbuat, KİV, təhsil, incəsənət və mədəniyyətin nəzarəti ən sərt şəkildə həyata keçirilir. Cəmiyyətin fikir bildirməsinin qarşısını almaq üçün geniş senzura mexanizmi fəaliyyət göstərir, halbuki hazırkı şəraitdə bütün KİV-lər hakimiyyətin monopoliyasındadır. Həmçinin, rəhbərin rolu, -hansı adla bəzədilmiş olursa olsun- dövlətin bütün qərar qəbuletmə proseslərini idarə edə bilər və ona verilən mövqeyə görə tənqid və səhvdən qorunaraq, özlüyündə müxaliflərin basdırılması üçün bir vasitəyə çevrilir.

İran cəmiyyəti, keçmiş Türk imperatorluqlarından miras qalmış

sərhədlərlə müəyyənləşdirilmiş bir ərazi daxilində, hazırda totalitar bir rejim tərəfindən idarə olunur ki, həm hakim sistemdən ayrı, həm də hökumət və cəmiyyətin birləşmiş tərkibi kimi qiymətləndirilməlidir. Bu yanaşma ilə mübarizə meydanı, siyasi hərəkat və təşkilatların qarşısında duran imkanlar da daha aydın müəyyən olunur.

Totalitar hakimiyyətin hökm sürdüyü cəmiyyətdə, repressiya və qorxu mühitinin yaradılması səbəbindən, vətəndaş cəmiyyəti ciddi şəkildə zəifləyir və insanlar təşkilatların, partiyaların və assosiasiyaların altında birləşməkdən çəkinirlər, nəticədə kütləvi bir cəmiyyət yaranır. İnsanlar dövlət tərəfindən müəyyən edilmiş sərhədlərdə fəaliyyət göstərməlidirlər. Təhsil müəssisələri, media və mədəni tədbirlər, dövlətin ideologiyası istiqamətində cəmiyyəti formalaşdırmaq üçün istifadə olunur və insanlar özləri də fərqində olmadan hər gün sistemin təbliğatının təsiri altında qalır və onların sosial davranışlarının müəyyən bir hissəsi sistemin təbliğatından təsirlənir. Sosial həyatın bütün aspektləri totalitar sistem tərəfindən ciddi şəkildə idarə olunduğundan və ictimai fikir rejimin təbliğat bombardmanı altında olduğundan, insanların sərbəst və hərtərəfli düşünmək imkanları avtomatik olaraq əllərindən alınır. Müstəqil düşüncə qabiliyyətinə malik olan, özlərini rejimin təbliğatından qoruyub saxlaya bilən və daha böyük mənzərəni görə bilən cəmiyyətin ziyalıları və vətəndaş fəalları isə rejimin zorakı gücü ilə qarşı-qarşıya qalır və nəticədə cəmiyyətin bu təbəqəsi də başqa bir yolla nəzarət altına alınır.

Beləliklə, totalitar rejim yalnız zorakılıq gücü əsasında hakimiyyət sürmür və siyasi, mədəni, iqtisadi və digər müxtəlif sahələrdəki amillər totalitar sistemin davamlılığına təsir edir. Cəmiyyətin əhəmiyyətli bir hissəsi böyük şəkli görməyi bacardığı və hökumətin onlara təlqin etdiyi roldan imtina etməyə qərar verdiyi təqdirdə, totalitar sistem ciddi şəkildə uğursuzluq və dağılma ilə üzləşəcək.

Son yüz ildə İran cəmiyyəti demokratik bir mühit təcrübəsindən məhrum olub və vətəndaş cəmiyyəti baxımından çox həssas və zəifdir. Müxtəlif məqsəd və düşüncələrə malik ictimai qurumlardan ibarət olan vətəndaş cəmiyyəti, kütləvi cəmiyyətin totalitar bir sistem yaratmasının qarşısını almaqda böyük rol oynaya bilər. Buna görə də, ziyalıların və siyasi və mədəni fəalların cəmiyyətin müxtəlif sahələrində təşkilatlar, dərnəklər və qruplar yaratması

çox önəmlidir və təşkilatlanmaq üçün atılan addımlar, cəmiyyətin totalitar düşüncələrə qarşı müqavimət qabiliyyətini artıracaq. Bu istiqamətdə Dirəniş Təşkilatı inanır ki, hər hansı formada və hər nə qədər kiçik ölçüdə olsa da, təşkilatlanma vətəndaş cəmiyyətini gücləndirməyə və totalitar qüvvələrə qarşı azadlıqsevər cəbhəni möhkəmləndirməyə böyük dəstək verə bilər.

Biz həmçinin inanırıq ki, İran, Türk şahları və sultanlarının hərbi qələbə və məğlubiyyətlərindən qalan sərhədlərlə müəyyən edilmiş çoxmillətli bir ölkədir ki, son yüz ildə millətlərin iradəsi totalitar qüvvələr və qlobal güclərin dəstəyi ilə əsarət altına alınmışdır. İnanırıq ki, İranda totalitar sistemlər ilə zülmə məruz qalan millətlərin müstəmləkə edilməsi arasında birbaşa və sıx bir əlaqə mövcuddur. Başqa sözlə, İranın ümumilikdə demokratikləşməsi, yalnız avtoritar və totalitar bir sistemin hakimiyyətdə olmadığı və daxili assimilyasiya və müstəmləkə siyasətinin birdəfəlik ləğv olunduğu halda mümkündür. İranın bütün ərazisində azadlıq və demokratiya, zülmə məruz qalan millətlərin hüquq və azadlıqları tanınmadan mümkün deyil. Aydın məsələdir ki, ifadə azadlığı, siyasi təşkilatlanma azadlığı və bu kimi digər azadlıqların məhdudlaşdırılması, əksər qeyri-fars millətlərə qarşı yönəlsə də, fars cəmiyyətinə də mənfi təsir edir. Bu məsələ fars cəmiyyətinin ziyalıları tərəfindən tam genişliyi və dərinliyi ilə dərk edilməzsə, bu, İranda yaşayan bütün toplumlar üçün bərpaedilməz və acı nəticələrə gətirib çıxara bilər.

Çoxmillətli bir ölkədə demokratiya ilə xalqların və etnik və dini azlıqların hüquqları arasındakı əlaqəni açıqlayarkən bir neçə məqama diqqət yetirmək olar.

Xalqların və etniklərin hüquq və azadlıqlarına dəstək, bir ölkədə ifadə və düşüncə azadlığına və qanunun aliliyinə bağlıdır ki, bu da demokratik bir dövlət və cəmiyyətin qurulması üçün əsas prinsip və ilk addımdır. Demokratik bir ölkədə, ifadə və düşüncə azadlığına, qanunun aliliyinə və müstəqil hüquq sisteminə hörmət, milli və etnik qruplara bərabər dəstək təmin edir.

Milli və etnik qrupların demokratik proseslərdə iştirak səviyyəsi, demokratiyanın sağlamlığı üçün əhəmiyyətlidir; buna görə də demokratik bir mühitdə, milli və etnik qruplar siyasi partiyalarını

yaratmaq, seçkilərdə iştirak etmək və özlərini ifadə etmək hüququna malik olacaqlar.

Demokratik ölkələrdə plüralizmə və tolerantlığa verilən əhəmiyyət, müxtəlif xalqların bir-biri ilə sülh içində yaşamasını təşviq edir; buna görə də plüralizm, demokratik cəmiyyətin prinsiplərindən biri olaraq, milli və etnik qrupların hüquq və azadlıqlarının müdafiəsində mühüm rol oynayır.

Bundan əlavə, demokratik ölkələrdə, KİV-lər və ifadə azadlığı milli və etnik qruplar üçün əhəmiyyətlidir ki, öz səslərini cəmiyyətə çatdıra bilsinlər və hüquqlarını müdafiə edə bilsinlər. Bu azadlıqların məhdudlaşdırılması, milli və etnik qrupların hüquqlarının pozulmasına səbəb ola bilər.

Bu, demokratiyanın əsas prinsiplərindən yalnız bir neçəsidir ki, onların həyata keçirilməsi, cəmiyyətin və mədəniyyətin hegemonluqdan qurtulmasına kömək edir və cəmiyyətin vəziyyətinə müsbət təsir göstərir. Başqa sözlə, demokratiya yolunda irəliləmək, İranda hegemonluq və əksəriyyətin zorakılığından imtina etməyi tələb edir; çünki demokratiya prinsiplərinin, məsələn, plüralizm, ifadə azadlığı və mətbuat azadlığı, sərbəst seçki prosesi və siyasi partiyaların fəaliyyəti, zorakılıq altında yaşayan xalqların səsini daha da artıracaqdır.

Demokratiya bir çox hallarda milli və etnik qrupların hüquqlarını avtomatik olaraq təmin etmir. Milli və etnik qrupların hüquqlarının daha səmərəli şəkildə təmin edilməsi üçün çoxmillətli ölkədə demokratiya sistemi gücləndirilməlidir. Bunun üçün ilk addım, ölkənin çoxmillətli olmasının tanınması və həmin millətlərin milli xüsusiyyətlərinin konstitusiyada tanınmasıdır; bu, sabahkı demokratik İranda zorakılıq altında yaşayan millətlər üçün ilk müdafiə qalxanı ola bilər.

İranda bir əsrlik totalitar və faşist təbliğatı milli qruplar arasında anlaşmaya böyük zərbə vurmuş və sosial dözümlülüyə ciddi ziyan yetirmişdir. Təhsil sistemi tədris proqramlarında ölkənin müxtəlif millətlərinin müxtəlifliyini, tarixi və mədəniyyətini əhatə edən məzmunu nəzərdə tutmalıdır. Bu addım İranda millətlərarası gərginliyin və yadlaşmanın azalmasına kömək edəcək, millətlərin

bir-birini tanıması və qəbul etməsi isə qarşılıqlı dözümlülüyü və sülh şəraitində birgə yaşama ruhunu artıracaqdır.

Milli qrupların siyasi iştirakı və təmsilçiliyi artırılmalıdır. Milli və etnik qrupların öz milli və etnik kimlikləri ilə siyasi partiyalar qurmaq və seçki sistemində ədalətli şəkildə iştirak etmək hüquqları təmin edilməli və zəmanət altına alınmalıdır. Müzakirə və münaqişələrin həlli üçün demokratiyalarda mövcud olan mexanizmlərə əsaslanaraq milli qruplar arasında dinc və demokratik yollarla dialoq aparmaq üçün şərait yaradılmalıdır.

Gücləndirilmiş demokratiya müəyyən qədər İranda milli və etnik qrupların hüquqlarını təmin edə bilər; lakin daha əvvəl də qeyd edildiyi kimi, demokratiya milli və etnik qrupların bütün hüquqlarını tamamilə təmin etmək qabiliyyətinə malik deyil. Bu, müasir dünyada qəbul edilmiş bir mövzudur. İlk olaraq bu məsələnin səbəbləri araşdırılacaq, sonra isə demokratik ölkələrdə milli və etnik qrupların hüquqlarını təmin etmək üçün mövcud yanaşmalar müzakirə olunacaq.

Bəzi hallarda demokratiya çoxluq yönümlü bir yanaşma göstərə bilər; bu zaman çoxluğun müəyyən etdiyi siyasətlər və qərarlar azlıqların hüquqlarını görməzdən gələ və ya onlara zərər verə bilər. Milli və etnik azlıqların hüquqlarını qorumaq üçün xüsusi tədbirlər görülməzsə, bu, milli, etnik və ya dini qrupların hüquqlarının pozulmasına gətirib çıxara bilər.

Bundan əlavə, bəzi hallarda demokratik proseslər, o cümlədən seçkilər, müxtəlif səbəblərdən, xüsusilə siyasi mühəndislik və daha çox səs qazanmaq üçün adi səs toplama prosesləri, eləcə də parlamentlərdəki səsvermələrdə çəkişmə və lobbiçilik səbəbindən qüsurlu ola bilər. Bu halda, siyasi liderlər öz maraqları üçün milli qrupların hüquqlarından istifadə edə və ya milli qrupları bir-birinə qarşı qoya bilərlər.

Hətta demokratiyalarda da, hüququn aliliyi pozula bilər və məhkəmə sistemi siyasi müdaxiləyə məruz qala bilər. Bu halda, milli və etnik qrupların hüquqlarını qorumaq üçün zəruri hüquqi tədbirlər görülməyə bilər və ədalət bərqərar edilməyə bilər. Hətta demokratik bir cəmiyyətdə bəzi qruplar milli fərqliliklərə və ya azlıqlara qarşı

dözümsüz ola bilərlər. Bu vəziyyətdə, hətta demokratik proseslər milli qrupların hüquqlarını pozmaq və ya ayrı-seçkiliyi təşviq etmək üçün istifadə oluna bilər.

Bütün bu səbəblərə görə, milli, etnik və dini qrupların hüquqlarını qorumaq üçün demokratiyanı gücləndirməklə yanaşı, xüsusi tədbirlər və davamlı səylər göstərmək zəruridir. Demokratik institutlar yalnız milli müxtəlifliyi qəbul edən, sülhsevər, ədalətpərəst və bərabərlik tərəfdarı olan bir cəmiyyət üçün bir vasitədir; lakin tək başına yetərli deyillər.

Federativ sistem, çoxmillətli bir ölkədə milli qrupların hüquq və azadlıqlarını müdafiə etmək və demokratiyanı gücləndirmək üçün effektiv bir sistem ola bilər. Federalizm, mərkəzi dövlətin konstitusiya vasitəsilə səlahiyyətlərini regional hökumətlərə ötürdüyü və gücün bu hökumətlər arasında bölündüyü bir sistemdir. Bu şəkildə, müxtəlif milli və etnik qruplara öz muxtariyyəti prinsipi əsasında mədəni kimliklərini və maddi-mənəvi resurslarını qorumaq imkanı tanınır.

# Üçüncü Bölmə

## Bir çıxış yolu olaraq, Federalizm

Klassik mənada demokratiya siyasi gücü cəmiyyətin fərdləri arasında bərabər bölüşdürərək, cəmiyyətin bütün fərdləri üçün seçilmək imkanı, öz gələcəklərini müəyyən etmək hüququ, nümayəndəlik, inkişaf, rifah, azadlıq və ədalət hüququ, ifadə azadlığı və partiyalaşma hüququ yaradır. Eyni şəkildə, fədralizm də siyasi gücü ölkə daxilində mədəniyyət, dil, din və irq fərqliliyi olan cəmiyyətlər arasında şaquli şəkildə bölüşdürərək, müxtəlif millətlərin sülh şəraitində bir araya gəlməsini, mübahisələrin dialoq və müzakirə ilə həll edilməsini təmin edir. Buna görə, İranın siyasi və sosial sabitliyi üçün demokratiya və federalizm bir-birini tamamlayaraq fəaliyyət göstərəcəkdir. Federalizm, bir çox böyük və milli müxtəliflik olan ölkələrin idarəsində istifadə edilən bir sistemdir; bu sistemin tarixi qədim Yunan şəhər-dövlətlərinə və Roma Respublikasına gedib çıxır və zamanla təkamül prosesi keçirmişdir. Hal-hazırda, mədəni cəhətdən inkişaf etmiş bəzi ölkələr bu sistemlə idarə olunur ki, bu da Yaxın Şərq ölkələri, o cümlədən İran üçün bir çox üstünlüklər təqdim edir.

İranın müxtəlif bölgələrində yaşayan millətlər fərqli mədəniyyətə, dilə, məzhəbə və iqtisadi, mədəni və sosial ehtiyaclara malikdirlər. Bu sistem müxtəlif milli müxtəlifliyə sahib bölgələrə özünəməxsus kimlik və ehtiyaclarını qorumaq və gücləndirmək imkanı verir. Federalizm, yerli hökumətlərə daha geniş qərar qəbuletmə

səlahiyyətləri tanıyaraq onlara öz cəmiyyətlərinin ehtiyaclarını daha yaxşı anlamağa və qarşılamağa kömək edir.

Demokratiya və federalizm bir-birini tamamlayır, federalizm isə ölkədə demokratiyanı gücləndirir. Mərkəzləşdirilmiş hökumət bütün qərarları verdiyi halda, federal sistemdə yerli hökumətlər daha çox qərarvermə səlahiyyətinə malikdir. Bu, vətəndaşların yalnız milli səviyyədə deyil, həm də əyalət səviyyəsində daha çox təsir imkanı ilə iştirak etmələrini təmin edir.

Bundan əlavə, federasiya mərkəzi hökumətin həddindən artıq mərkəzləşməsinin qarşısını alır. Mərkəzi hökumətin ölkənin bütün işlərini nəzarət və idarə etmək cəhdləri bəzən bürokratik səmərəsizliyə və idarəetmədə korrupsiyaya gətirib çıxara bilər. Hazırda İran İslam Respublikası, ölkənin müxtəlif vilayətlərində idarəetmədə geniş yayılmış korrupsiya və səmərəsizlikdən ciddi şəkildə əziyyət çəkir, elə buna görə də bəzi rəhbərləri və qurumları ölkənin bir neçə iqtisadi bölgəyə bölünməsi və ya desentralizasiya barədə (hərçənd ki, bu təkliflər əksik və problemli yanaşmalardır) uzun müddətdir danışırlar. Federal sistemdə, əyalət hökumətlərinin köməyi ilə mərkəzi hakimiyyətin həddindən artıq mərkəzləşməsinin qarşısı alınır, totalitarizm və idarəetmə korrupsiyasına mane olunur, sürətli qərar qəbuletmə ilə daha səmərəli idarəetmə təmin edilir.

Nəticədə, bu model İranda cəmiyyətlər və millətlər üçün daha çox azadlıq, daha geniş demokratik iştirak və daha səmərəli idarəetmə təmin edə bilər. İnanırıq ki, ölkənin demokratik qüvvələri, demokratik dəyərlərə əsaslanan siyasi ittifaq və təşkilatçılıq və sistematik yanaşmaya əsaslanan əməkdaşlıqla, totalitarizmə qarşı əhəmiyyətli bir gücə çevrilə biləcək və ölkənin totalitarizmdən və daxili müstəmləkə sistemindən çıxışı istiqamətində böyük bir addım atmış olacaqlar.

Əslində, İranın əsasları Səfəvilər dövründə qoyulduqdan və Pəhləvi dövrünə qədər olan müddətdə tarixi və ənənəvi olaraq federal şəkildə idarə olunmuşdur. Səfəvi və Qacar dövrlərində mövcud olan "Məmalik-i Məhrusə" idarəetmə sistemi də, əslində, ənənəvi federasiya idi və İran təbii olaraq Azərbaycan, Xorasan, Fars, Kirman, Ərəbistan və s. kimi məmləkətlərdən ibarət idi. Rza xan tərəfindən Avropa güclərindən birinin təsiri ilə yaradılan mərkəzləşdirilmiş

idarəetmə sistemi tarixi və ərazi reallıqlarına uyğun gəlmirdi və nəticədə uğursuz oldu. Buna görə, federal sistemə qayıdış, tarixi köklərə qayıdış anlamına gələcəkdir.

## İran Federal Respublikasının siyasi strukturu

Azərbaycan Milli Dirəniş Təşkilatının məqsədi, Güney Azərbaycan Türk Millətinin və İranın digər Türk bölgələrinin milli rifahını təmin etməkdir və bu məqsədə tarixi istəkləri olan milli və demokratik bir hökumətin yaradılması ilə, yəni öz müqəddəratını təyin etmək hüququ əsasında Azərbaycanda milli və demokratik hökumətin təsis edilməsidir.

Azərbaycan Milli Dirəniş Təşkilatının baxışına görə, Türklərin milli maraqlarını qorumaq üçün Güney Azərbaycan milli hökuməti, öz müqəddəratını təyin etmə hüququ əsasında, federal İran Respublikasının daxilində respublika strukturu ilə qurulmalıdır. Ölkənin siyasi bölgüləri tarixi reallıqlara uyğun olaraq əyalətlər və vilayətlər əsasında federativ quruluş çərçivəsində aparıla bilər. Tarixdə mövcud olan Azərbaycan, İraq-ı Əcəm, Gilan və Mazandaran və ya Təbəristan, Ərəbistan, Kürdüstan, Bəlucistan, Fars, Kirman, Xorasan və Türkmənsəhrə kimi əyalətlər və vilayətlər bu federativ bölgünün əsası kimi xidmət edə bilər.

Azərbaycan Milli Dirəniş Təşkilatının baxışına görə, İranın idarəetmə forması respublika və federasiya prinsipləri əsasında qurulmalıdır ki, siyasi qüvvələrin ayrılığı, gücün qeyri-tarazlı mərkəzləşməsindən çəkinmək və siyasi hakimiyyətin İran daxilindəki millətlər arasında bölüşdürülməsi prinsiplərinə əsaslanaraq demokratiyanın qurulması və dayanıqlı inkişaf üçün yol açılsın.

Federal dövlətin paytaxtı, onun müxtəlif və çoxsaylı strukturlarına görə, hələ də Tehran ola bilər. Bütün əyalətlər öz əhalisinin nisbətinə görə federal hökumətdə təmsil olunmalıdır.

Beynəlxalq insan hüquqları prinsipləri və sənədləri əsasında, İran federal hökumətinin qanunlarında, İranı təşkil edən millətlərin öz müqəddəratını təyin etmə hüququ tanınmalıdır.

Azərbaycan Milli Dirəniş Təşkilatı hesab edir ki, prezident idarəetmə sistemi, sürətli qərar qəbuletmə və icraetmə qabiliyyəti ilə demokratik bir üsul kimi Azərbaycan əyaləti üçün ən uyğun idarəetmə forması olacaq. Bu təşkilat, gücün tarazlığını qorumaq və hakimiyyətin mərkəzləşməsinin qarşısını almaq üçün əyalətlərdə prezidentlik sisteminin sürətli qərar qəbuletmə və siyasi sabitlik xüsusiyyətlərini saxlamaqla yanaşı, federal səviyyədə demokratik bir inzibati və hüquqi sistemi təmin etmək üçün parlament idarəetmə sistemini də təklif edir.

Təklif olunan parlament sistemində icra hakimiyyətinin əsas məsuliyyəti və ölkənin idarə olunması Federal Məclis tərəfindən seçilən baş nazirin üzərinə düşür. Baş nazir parlamentin əksəriyyətinin dəstəyini alır və hökumət siyasətlərini həyata keçirmək üçün kabineti formalaşdırır. Digər tərəfdən, prezident daha çox simvolik və ya rəsmi rol daşıyır və adətən xalq tərəfindən birbaşa seçilir. Prezidentin vəzifələri isə konstitusiyaya nəzarət etmək, qanunları imzalamaq və rəsmi tədbirlərdə ölkəni təmsil etməklə məhdudlaşır.

Bu ikili struktur federal səviyyədə icra və qanunverici hakimiyyət arasında balans yaradır və baş nazirin ölkənin idarə edilməsində mərkəzi rolunu parlamentin nəzarəti ilə təmin edərək gücün bir institutda həddindən artıq cəmlənməsinin qarşısını alır. Eyni zamanda, milli birliyin simvolu kimi çıxış edən prezident, siyasi böhranlar zamanı vasitəçi rolunu oynaya bilər.

Bu model, əyalətlərdə prezidentlik sistemini və federal səviyyədə parlament sistemini qoruyaraq siyasi sabitliyi və icra səmərəliliyini təmin edir və İranın çoxmillətli cəmiyyətində müxtəlif təbəqələrin, millətlərin və dini qrupların daha geniş təmsilçiliyinə imkan yaradır.

## Əyalət hökumətləri

Əyalət hökumətləri respublika formasında olacaq.

Əyalət hökumətlərinin səlahiyyətləri və federal hökumət ilə münasibətləri dəqiq detallarla tərtib edilməli və əyalət və federal

parlamentlər tərəfindən təsdiqlənməlidir.

Bu təklifə görə, İranın federal sistemində əyalət hökumətləri öz kabinetləri, məhkəmə sistemi və əyalət, şəhər və kənd məclisləri ilə fəaliyyət göstərəcək. Əyalət məclisi, xalq tərəfindən seçilən nümayəndələrdən ibarət olaraq əyalətin daxili siyasətlərinin qanunvericiliyində rol oynayacaq. Səlahiyyətlər bu institutlar və əyalət hökuməti ilə federal hökumət arasında dəqiq və detallı şəkildə müəyyən edilməlidir. Federal sistem çərçivəsində əyalətlərə siyasi, iqtisadi və təhlükəsizlik sahələrində muxtariyyət veriləcəkdir. Bu, daxili idarəetmə, iqtisadiyyat, rəsmi dil, mədəniyyət, təhsil, infrastruktur və əyalət təhlükəsizlik qüvvələrinin yaradılması kimi sahələrdə qərar qəbul etmə hüquqlarını əhatə edir. Bu qüvvələr əyalət hökumətinə tabe olacaq.

Əyalət hökuməti respublikanın daxili siyasətlərini həyata keçirmək, İran federal hökuməti ilə danışıqlar və razılaşmalar aparmaq, inzibati və ictimai xidmətləri təmin etməkdən məsul olacaq. Əyalətlər, federal konstitusiyaya zidd olmamaq şərti ilə, daxili qanunlar qəbul edib tətbiq edə bilər. Federal konstitusiya mane olmadıqca, əyalətlər fərqli qanunlar qəbul edə bilərlər. Federal hökumətin səlahiyyət dairəsinə xarici siyasət, müdafiə, beynəlxalq ticarət, immiqrasiya və konstitusiyaya aid məsələlər daxil olacaq. Əyalətlərin idarəetmə sahəsinə isə təhsil, əyalət daxilində təhlükəsizlik, cinayət hüququ, vətəndaş hüquqları, sağlamlıq, ətraf mühit və daxili ticarət kimi məsələlər daxildir.

Federal İranda əyalət respublikalarının müstəqil məhkəmə sistemi olacaq. Bu respublikalar öz məhkəmə sisteminə sahib olacaq və qanunların icrası və müvafiq işlər üzrə məhkəmə qərarlarının həyata keçirilməsinə cavabdehdir.

Bu sistem yerli məhkəmələr, müstəqil vəkillər kollegiyası və digər müvafiq məhkəmə institutlarından ibarət olacaq. Federal konstitusiya çərçivəsində əyalət məhkəmələrinin qərarları federal qanunlarla uyğun ola və ya bəzi hallarda fərqli ola bilər. Federal məhkəmə və Ali Məhkəmə kimi institutlar isə məhkəmələrə nəzarət edərək federal konstitusiyanın ədalətli şəkildə həyata keçirilməsini təmin edə bilər.

Azərbaycan Milli Direniş Təşkilatının baxışına görə, əyalətlərin idarəetmə sistemi prezidentlik sistemi olmalıdır və əyalət rəhbəri, azad və rəqabətli seçkilərlə xalq tərəfindən birbaşa seçilməlidir. Əyalət rəhbəri, nazirlər kabinetini formalaşdırmaq və icra işlərini idarə etməkdən məsul olacaq.

Federal dövlət prinsiplərinə əsasən, əyalətlərin xarici işlər nazirliyi olmayacaq; lakin muxtariyyət və səlahiyyətlər çərçivəsində əyalət hökumətlərinin səlahiyyətliləri digər ölkələrlə siyasi, mədəni və iqtisadi sahələrdə əməkdaşlıq, müqavilə imzalama və əlaqə qurma hüququna malik olacaqlar.

Əyalətlərdəki siyasi partiyalar əyalət seçkilərində iştirak hüququna malik olmaqla yanaşı, İran federal hökumətinin parlament və prezident seçkilərində iştirak hüququna da sahib olmalıdırlar.

## İslam Respublikası rejimindən keçid dövrü

İslam Respublikası rejiminin düşməsindən sonra, Azərbaycan bölgəsində siyasi qüvvələr milli bir hökumət qurmağa çalışacaqlar. Bu səbəbdən, keçid dövrü üçün sistematik və əhatəli bir proqram hazırlanmalıdır. Bu proqram müvəqqəti qurumlar üçün dəqiq mərhələləri və vəzifələri əhatə etməlidir ki, bu da Güney Azərbaycanda və İranın demokratik bir hökumətinə sükunətlə və uğurla keçidi təmin etsin.

Eyni zamanda, əyalətlərdə keçid dövrünü idarə etmə fəaliyyəti ilə yanaşı, ölkə səviyyəsində də idarəetmə fəaliyyətləri aparılmalıdır ki, bu da təbii olaraq, əyalətlərin qanuni nümayəndələrinin iştirakı ilə həyata keçiriləcək.

### A. Müvəqqəti Milli Şuranın yaradılması

Müvəqqəti Milli Şura, Azərbaycanda milli hakimiyyətin qurulması istiqamətində ilk addım olaraq təsis edilir. Bu şura, milli mübarizələrdə iştirak etmiş siyasi partiyaların nümayəndələri, tanınmış şəxsiyyətlər və mütəxəssislərdən ibarətdir. Şuranın əsas vəzifələri bunlardır:

- *Keçid dövründə regionun siyasi, təhlükəsizlik və sosial işlərini idarə etmək*
- *Cəmiyyət işlərinin idarə edilməsi üçün müvəqqəti komitələrin yaradılması və nəzarəti*
- *Təhlükəsizliyin təmin edilməsi və ictimai asayişin qorunması*
- *Daimi demokratik qurumlara hakimiyyətin ötürülməsi üçün lazım olan şəraitin yaradılması*
- *Seçkilər və daimi hökumət və Milli Məclisin qurulmasına qədər bütün icra və idarəetmə işlərinin məsuliyyətini üzərinə götürmək*
- *Beynəlxalq qurumlarla əməkdaşlıq edərək hakimiyyətin ötürülməsini asanlaşdırmaq və seçkilərə nəzarət*
- *Seçkilərin keçirilməsi və əyalət məclisinin qurulması üçün şərait yaratmaq*

Əyalət Məclisinin ilk vəzifəsi əyalət üçün yeni konstitusiyanın hazırlanması olacaq. Bu konstitusiya bütün vətəndaşların hüquq və azadlıqlarını insan hüquqlarının ümumbəşəri dəyərlərinə əsaslanaraq təmin etməli və idarəetmə strukturlarını aydın şəkildə müəyyənləşdirməlidir. Azərbaycan əyalətinin konstitusiyası, adətən, İranın federal respublikasının konstitusiyasına uyğun olaraq hazırlanmalı və təsdiq edildikdən sonra keçid dövrü başa çatacaq.

**B. Müvəqqəti Seçki Komitəsinin yaradılması**

Müvəqqəti Seçki Komitəsi Müvəqqəti Milli Şuranın nəzarəti altında yaradılacaqdır. Bu komitənin vəzifələri:

- *Azad, ədalətli və şəffaf seçkilərin keçirilməsi üçün zəruri şərait yaratmaq,*
- *Seçkilərin bütün mərhələlərinə, o cümlədən namizədlərin və seçicilərin qeydiyyatına, seçki kampaniyalarına və səslərin toplanmasına nəzarət etmək,*
- *Bu prosesdə bütün təbəqə və qrupların bərabər təmsilçiliyini*

*təmin etmək,*

- *Referendum prosesinə nəzarət və onun şəffaflığını təmin etmək üçün beynəlxalq qurumlarla əməkdaşlıq etmək.*

**C. Silahlı Qüvvələrin Təşkil və İdarəetmə Komitəsinin yaradılması**

Silahlı Qüvvələrin Təşkil və İdarəetmə Komitəsi, ordu, qvardiya, polis qüvvələri və digər təhlükəsizlik qüvvələrini idarə etmək üçün Müvəqqəti Milli Şuranın nəzarəti altında yaradılacaqdır. Müvəqqəti Milli Şura, vətəndaşların təhlükəsizliyini təmin etmək və ictimai yerləri, əlaqə xətlərini, siyasi partiyaların ofislərini və xarici nümayəndəlikləri qorumaq üçün əyalət polisini təşkil edəcəkdir. Bu komitənin vəzifələri:

- *Silahlı qüvvələrdə nizam və birliyi qorumaq,*
- *Təhlükəsizlik qüvvələrində hər hansı bölünmə və ya daxili üsyanların qarşısını almaq,*
- *Silahlı qüvvələrin təhlükəsiz və nəzarətli şəkildə keçidini təmin etmək və bu qüvvələri demokratik seçilmiş qurumlara inteqrasiya etmək,*
- *İctimai asayiş və təhlükəsizliyi qorumaq,*
- *Daxili və xarici təhlükəsizlik təhdidləri ilə mübarizə aparmaq,*
- *Keçid dövründə insan hüquqlarını qorumaq və ədaləti təmin etmək,*

**D. Beynəlxalq qurumlarla əməkdaşlıq**

Keçid dövründə beynəlxalq qurumlarla əməkdaşlıq xüsusi əhəmiyyət daşıyır. Bu əməkdaşlığa daxildir:

- *Seçkilərə nəzarət,*
- *İnfrastrukturun yenidən qurulması və inkişafı üçün məsləhət, texniki və maliyyə yardımı almaq,*
- *Azərbaycanın əyalətinin siyasi suverenliyinə beynəlxalq dəstəyi və ərazi bütövlüyünün tanınmasını təmin etmək.*

# Dördüncü Bölmə

## Dəyərlər və Meyarlar

Azərbaycan, zəngin tarixi və müxtəlifliyə, birgəyaşayışa hörmətə əsaslanan mədəniyyəti ilə illərdir ki, azadlıq və ədalət yolunda enişli-yoxuşlu bir yol qət edir. Bu millətin öz müqəddəratını təyin etmək uğrundakı mübarizəsi yalnız möhkəm bir iradənin əksi deyil, həm də insanı dəyərlər və bərabərlik prinsiplərinə əsaslanan bir cəmiyyət yaratmaq üçün davamlı bir səydir.

Bu mübarizələr elə bir zamanda baş verir ki, Azərbaycan Türk millətinin idealları həmişə fərdlərin əsas hüquqlarının, etnik mənsubiyyət, dil və dinindən asılı olmayaraq, qorunmasına yönəlmişdir. Əslində, bu mübarizə elə bir sistem yaratmaq üçündür ki, burada azadlıq, ədalət və bərabərlik cəmiyyətin əsas dayaqları kimi nəzərdə tutulur. Bu səbəbdən, Azərbaycan müasir dəyərlərə əsaslanaraq elə bir cəmiyyət qurmağa çalışır ki, orada hər bir fərd mədəni və dini fərqliliklərə baxmayaraq kollektiv qərarvermədə iştirak hüququna sahib olsun və bütün sahələrdə hüquqları qorunsun.

Azərbaycan qarşısında duran çətinlikləri nəzərə alaraq elə bir cəmiyyət yaratmaq istəyir ki, burada dinc yanaşı yaşamaq və qarşılıqlı hörmət dəyişməz prinsiplər kimi qəbul edilsin. Bu yol, sosial və iqtisadi infrastrukturun gücləndirilməsini tələb edir ki, sosial ədalət təmin olunsun və davamlı inkişaf həyata keçirilsin. Azərbaycanın

arzuladığı gələcək, heç bir fərdin marginallaşdırılmadığı, hamının bərabər və azad bir mühitdə inkişaf və çiçəklənmə imkanı tapdığı bir cəmiyyətdir.

Bu kontekstdə, xüsusilə qadınlar, uşaqlar, işçilər, cinsi və dini azlıqların hüquqlarına diqqət yetirmək xüsusi əhəmiyyət kəsb edir. Bu qruplara dəstək vermək, yalnız sosial ədalətin qorunması üçün zəruri deyil, eyni zamanda dərin bir etik və insanlıq prinsipinə sadiqliyi nümayiş etdirir. Azərbaycan, fərqliliklərə hörmətin və hər kəs üçün bərabər hüquqların təmin edilməsinin cəmiyyətin dayanıqlığı və tərəqqisi üçün əsas olduğunu dərk edərək, bütün cəmiyyət üzvlərinin öz potensialını tam şəkildə həyata keçirə biləcəyi bir gələcəyə doğru irəliləyir.

## Sekulyarizm

Azərbaycanın Milli Direniş Təşkilatına görə, Güney Azərbaycan milli hökuməti və ümumiyyətlə İran Federal Respublikası siyasi işlərin dinlərdən ayrılması prinsipinə əsaslanmalıdır və sekulyar bir hökumət olmalıdır. İcra, qanunverici və məhkəmə hakimiyyətlərində qanunlar heç bir şəkildə dini qanunlardan təsirlənməyəcəkdir. Güney Azərbaycan milli hökumətinin hüquq qanunları müasir və rasional cinayət qanunlarına uyğun şəkildə tənzimlənəcəkdir. Güney Azərbaycan milli hökumətinin qanunverici orqanı olan parlament və icra hakimiyyəti, konstitusiyaya riayət edərək, öz vəzifə və məsuliyyətlərini sekulyarizm prinsipi çərçivəsində yerinə yetirəcəkdir. Din, siyasi proseslərdə və dövlət qərarlarında iştirak etməməlidir, lakin dövlət dini fəaliyyətlər, xüsusilə dini işlər idarəsi kimi qurumlar vasitəsilə nəzarət və kontrol həyata keçirəcəkdir. Bu mövzu din və dinlər bölməsində izah edilmişdir.

### Sekulyar Hökumət

**(a)** Azərbaycan Milli Hökuməti sekulyar bir hökumət olacaq və sekulyarizm prinsiplərini siyasət və qanunvericiliyin əsasları olaraq elan edəcəkdir. Sekulyarizm, dinin dövlətdən tam ayrılmasını və bütün vətəndaşlar üçün dini və inanc azadlığının təmin edilməsini nəzərdə tutur.

**(b)** Dövlət bütün dini və qeyri-dini inanc və məzhəblərə bərabər hörmət etməli və onlara qarşı neytral bir mövqe tutmalıdır. Dövlət siyasət və qanunlarla təmin etməlidir ki, Güney Azərbaycanda heç bir vətəndaş inancı, məzhəbi, dini inancın olmaması və ya dini prinsiplərə riayət etməməsi səbəbindən ayrı-seçkiliyə, təzyiqə və ya təhlükəyə məruz qalmır.

Bu sistemdə hökumət dini məsələlərdə neytral olacaq və bütün dinlərə eyni məsafəni saxlayacaqdır. Dövlət, hər hansı bir dinin tanınmasını rədd edir və dini inanclara hörmət göstərir. İctimaiyyət arasında dini mərasimlər və adət-ənənələr icazəli olacaq, lakin hökumətin üç əsas orqanı heç bir halda dini bir yanaşma nümayiş etdirməyəcəkdir. Din və dövlət işləri bir-birindən ayrılacaq; ancaq vətəndaşlar öz dini inanclarını sərbəst şəkildə həyata keçirə bilərlər.

Müəyyən edilən sistemdə sekulyarizm prinsipləri ön planda olacaq və dövlətin heç bir dini inancı və ya dini fəaliyyəti təşviq etməsi, dəstəkləməsi və ya ona qarşı hər hansı bir siyasət həyata keçirməsi gözlənilmir. Bununla yanaşı, dinin sosial həyatda rolu və dini qurumların mövcudluğu inkar edilmir.

Məsələn, təşkilatın nəzərdə tutduğu bu sistemdə, dövlət məktəblərində dini təhsil təqdim edə bilər, lakin şagirdlərə xüsusi bir dinin ideologiyasını tətbiq etmək əvəzinə, dini təhsil ümumi, tərəfsiz və elmi şəkildə təqdim olunmalıdır. İctimaiyyət arasında dini simvolların istifadəsi sərbəst ola bilər, lakin heç bir dini simvol dövlət tərəfindən xüsusi olaraq təşviq olunmayacaq və ya qadağan edilməyəcəkdir.

Bu sekulyar sistem, dinin ictimai sahədə qəbulunu, müxtəlif məzhəblərin azadlığı və müxtəlifliyinin dəstəklənməsini təmin edəcək, eyni zamanda qanunverici, icraedici və məhkəmə hakimiyyətlərindən dinin ayrılmasına əsaslanacaqdır. Beləliklə, cəmiyyət və hökumət elə bir tarazlığa nail olacaq ki, burada dini və sekulyar fəaliyyətlər dinc yanaşı yaşasın və bütün sosial spektrlər ayrı-seçkilik və ya marginallaşma hissindən qorunsun.

## Dil

Bütün federal respublika əyalətlərində yerli dillər və ya həmin

əyalətin geniş yayılmış dilləri təhsil və idarəetmənin rəsmi dili olacaqdır. Ölkədə geniş danışıq dairəsi olan dillər — məsələn, Türk, Fars, Kürd, Ərəb və Bəluç dilləri — ölkə səviyyəsində də rəsmi olmalıdır və federal hökumət bütün dillər üçün bərabər imkanları təmin etməlidir.

Azərbaycan Milli Direniş Təşkilatının baxışına görə, Türkcə 1925-ci ildən bu günə qədər daxili müstəmləkəçilik nəticəsində İranı idarə edən faşizm tərəfindən sistemli şəkildə böyük zərbələrə məruz qalmışdır. Azərbaycan əyalətində bütün təhsil səviyyələrində tədrisin rəsmi dili Azərbaycan Türkcəsi dilində olacaqdır. Orta məktəbdə isə şagirdlər ən azı İranın rəsmi dillərindən birini və bir beynəlxalq dili öyrənməlidirlər.

Azərbaycan Milli Hökuməti, Güney Azərbaycanda Türk dilinin qorunması və inkişafı üçün Türk dilində fəaliyyət göstərən Dil Akademiyasının yaradılmasını və bu təşkilatın maliyyələşdirilməsini təmin etmək vəzifəsini öz üzərinə götürəcəkdir. Bütün dillərin qorunması həm federal hökumətin, həm də bütün əyalət hökumətlərinin əsas vəzifələrindən biri olacaqdır.

Türk dili akademiyasının bəzi vəzifələri bunlardır:

- *Türk dilinin elm, mədəniyyət, ədəbiyyat və təhsil dili kimi inkişaf etdirilməsi və yayılması*

- *Türk dilinin bütün dövlət və özəl müəssisələrdə düzgün, gözəl və təsirli istifadəsinə kömək etmək*

- *Türk dilinin özünəməxsusluğunu qorumaq və keçmişdəki dağıdıcı təsirləri düzəltmək*

- *Bu sahədə müvəffəqiyyət qazanmış digər Türk ölkələrinin təcrübələrindən istifadə etmək və Türk dili ilə bağlı maksimum inteqrasiya siyasətini həyata keçirmək.*

İran Fedeal Respublikasında dil və mədəniyyət üzrə ayrı-seçkilik və üstünlük olmayacaq, bütün əsas dillər bütün ölkə üzrə rəsmi olacaqdır. Az danışılan dillər isə istifadə olunduqları bölgələrdə rəsmi status ala bilərlər.

Azərbaycan Milli Direniş Təşkilatının baxışına görə, türk olmayan

vətəndaşlara dilin məcburi şəkildə tədrisi qəbuledilməzdir və müasir sivilizasiyalı insanın demokratik prinsiplərinə ziddir. Bu səbəbdən:

## Güney Azərbaycandakı müxtəlif dillərin hüquqları

**(a)** Güney Azərbaycanın əsas və rəsmi dili Türk dili olacaqdır. Lakin hökumət, Güney Azərbaycandakı bütün dillərin hüquqlarını təmin etməli və dil ayrı-seçkiliyinin qarşısını almalıdır.

**(b)** Hər bir insan öz ana dilindən şəxsi, mədəni və sosial həyatında istifadə etmək hüququna malikdir. Hökumət, mədəni plüralizm dəyərlərinə əsaslanaraq, Güney Azərbaycanda müxtəlif dillərin öyrənilməsi və qorunması üçün zəruri şərait yaratmalıdır.

**(c)** Milli hökumət, qanunlarla təmin etməlidir ki, heç bir vətəndaş ana dilindən istifadə etdiyi üçün ayrı-seçkiliyə məruz qalmır və hüquq və imkanlarda bərabərlik prinsipləri qorunur.

**(d)** Güney Azərbaycan milli hökuməti, çoxdilliliyi yalnız bir təhlükə kimi görməməli; eyni zamanda Türk dili ilə yanaşı, müxtəlif dillərin qorunması və inkişafı üçün müvafiq siyasətlər hazırlamalı və həyata keçirməlidir. Mədəniyyətin zənginləşməsi və qarşılıqlı əlaqənin artırılması üçün çoxdilliliyin təşviq edilməsi vacibdir.

**(e)** Əgər bir qrup azərbaycanlı vətəndaş müəyyən bir dildə spesifik bölgədə danışırsa, hökumət, həmin bölgənin mədəni və dil kimliyini qorumaq məqsədilə, dil və mədəniyyətin inkişafı üçün maliyyə dəstəyi kimi zəruri tədbirlər görməlidir.

# Milli Coğrafıya

Azərbaycan Milli Dirəniş Təşkilatının baxışına görə, Güney Azərbaycan əyalətinin ərazisi Qərbi Azərbaycan, Şərqi Azərbaycan, Ərdəbil, Zəncan, Qəzvin və Əlborz ostanlarını, həmçinin Gilan, Həmədan, Mərkəzi, Kürdüstan və Kermanşah ostanlarının Türk əhalisinin yaşadığı bölgələri əhatə edir. Güney Azərbaycan əyalətinin bölgələri aşağıdakı kimi təyin olunmuşdur:

- ***Şərqi Azərbaycan ostanı, mərkəzi Təbriz,***
- ***Qərbi Azərbaycan ostanı, mərkəzi Urmiyə,***
- ***Ərdəbil ostanı, mərkəzi Ərdəbil,***
- ***Zəncan ostanı, mərkəzi Zəncan şəhəri,***
- ***Qəzvin ostanı, mərkəzi Qəzvin şəhəri,***
- ***Əlburz ostanı, mərkəzi Kərəc,***
- ***Astara şəhəri və Xəzər dənizi sahillərindəki Türk əhalisinin yaşadığı bölgələr,***
- ***Sava şəhəri və Mərkəzi ostanın Türk əhalisinin yaşadığı bölgələr,***
- ***Tehran və Qum ostanlarının Türk əhalisinin yaşadığı bölgələr,***
- ***Həmədan ostanının Türk əhalisinin yaşadığı bölgələr, mərkəzi Həmədan,***
- ***Bicar, Qürvə, Sonqur və Səhnə şəhərləri.***

# Bayraq

İranın federal bayrağı ilə yanaşı, hər bir əyalət öz əyalət bayrağına sahib olma hüququna malik olacaq. İran Federal Respublikasının bayrağı Federal Məclisdə, əyalət və ostan nümayəndələrinin iştirakı ilə hazırlanmalı və bu məclisin səsverməsi ilə təsdiq edilməlidir.

Azərbaycan Milli Dirəniş Təşkilatının Güney Azərbaycan üçün təklif etdiyi bayraq "Güney Azərbaycanın Milli Mübarizə Bayrağı" olaraq tanınır. Bu bayraq qırmızı fonda aypara və səkkizguşəli ulduzdan ibarətdir; sol üst künc mavi, sol alt künc isə yaşıl rəngdədir. Hazırda bu bayraq daxildə və xaricdə siyasi cərəyanlar arasında Güney Azərbaycanın milli mübarizə bayrağı kimi tanınır.



## Din və məzhəblər

Azərbaycan Milli Direniş Təşkilatının baxışına görə, Güney Azərbaycanda vətəndaşların din və inanclarına dözümlülük və hörmət, demokratiyanın və fərdi azadlığın əsas prinsiplərindən biri olacaqdır. Yaşadığımız cəmiyyətdə müxtəlif inancları və dinləri mənimsəmiş fərdlər mövcuddur. Azərbaycan milli hökuməti elə bir şərait yaratmalıdır ki, cəmiyyətin bütün üzvləri dini və məzhəbi mərasimlərini sərbəst şəkildə icra edə bilsinlər; təbii ki, bu mərasimlər digər vətəndaşların fərdi və ictimai hüquqlarına hörmətlə yanaşmaq şərtilə həyata keçirilməlidir.

Azərbaycan Milli Direniş Təşkilatının fikrincə, Güney Azərbaycan milli hökumətinin nəzdində, milli hökumət başçısının rəhbərliyi altında bir Dini İşlər Təşkilatı yaradılmalıdır. Bu qurum ibadətgahların və dini xidmətçilərin təşkilatlanması, idarə olunması və fəaliyyətinə nəzarəti təmin edəcəkdir. Bu təşkilatın büdcəsi milli hökumət tərəfindən təmin ediləcəkdir. Bu qurum, sekulyarizm prinsipi çərçivəsində bütün məzhəb və dinlər arasında dözümlülük və anlayış mədəniyyətini inkişaf etdirmək vəzifəsini daşıyacaqdır.

Din xadimləri ali təhsil nazirliyinin nəzarəti altında ilahiyyat fakültələrində və ya dini məktəblərdə təhsil alacaq və bu sahədə məzun olanlar Azərbaycan Dini İşlər Təşkilatı tərəfindən Azərbaycandakı ibadət yerlərinə təyin olunacaqlar. Bu təşkilatın vəzifə və məqsədləri, konstitusiya prinsiplərinə əsaslanaraq nizamnamə və əsasnamələrdə dəqiq şəkildə əks etdiriləcəkdir.

İlahiyyat fakültələri ilə yanaşı, Güney Azərbaycandakı dini məktəblər də Dini İşlər Təşkilatının və milli hökumətin Təhsil Nazirliyinin nəzarəti altında dini xidmətçilər yetişdirə bilərlər. Dini vəqflərə məxsus məktəblər və universitetlər də milli hökumətin nəzarəti altında qurula bilər və məscidlər və digər ibadətgahlar üçün dini liderlərin təlimi ilə məşğul ola bilər.

Biz inanırıq ki, din şəxsi və özəl bir məsələdir və heç kəs başqasını öz dinini qəbul etməyə məcbur edə və ya dini inanclarından çəkindirmə haqqına sahib deyil. Hər bir fərd, cəmiyyətin digər üzvlərinin fərdi azadlıqlarına müdaxilə etmədən, dini inanclarını heç bir ayrı-seçkilik və təəssüb olmadan yaşamalıdır. Biz inanırıq ki, dini

müxtəlifliyə hörmət cəmiyyətin güclənməsinə və fərdlər arasında mədəni əlaqələrin inkişafına töhfə verə bilər və sülh və həmrəyliyi təşviq edər. İnanclı, ateist və digər düşüncələrə sahib olanlar, öz inanclarını cəmiyyətə zorla qəbul etdirmədikləri təqdirdə, dini və mülki mərasimlərini sərbəst şəkildə həyata keçirə bilərlər.

Dinlər və məzhəblər arasında dözümlülüyün və qarşılıqlı anlaşmanın əhəmiyyətini nəzərə alaraq, milli hökumət müxtəlif dini və qeyri-dini ideologiyalar arasında dialoq və qarşılıqlı anlaşmanı təşviq edəcək tədbirlər həyata keçirməlidir. Dini dialoqların və birgə görüşlərin keçirilməsi, dinlərarası qrupların yaradılması və fikir mübadiləsi, məktəb dərsliklərində dini hökmləri yox, dinlər tarixini öyrətmək fərqli qruplar arasında anlaşma və empatiyanı gücləndirə bilər.

Biz azadlıqların, vətəndaş hüquqlarının və dinlərarası dözümlülüyün qorunmasına böyük əhəmiyyət veririk. İnanırıq ki, dini təəssüb və ayrı-seçkiliklərdən uzaqlaşmaqla, daha yaxşı və dinamik bir gələcəyə doğru birgə addımlaya bilərik. Əksəriyyətin dini və məzhəbi inanclarının nifrət və qorxu üzərində deyil, şəfqət və mərhəmət kimi dəyərlər əsasında formalaşdığına inanırıq və bu, təəssüb və ifratçılıqdan uzaq bir cəmiyyət qurma ümidlərimizi artırır ki, davamlı inkişaf yolunda irəliləyə bilək.

## Mədəniyyət və Milli Kimlik

İranın son yüz illik tarixində mədəniyyət və milli kimlik anlayışları, bu ölkədəki icmalar arasında ciddi anlaşılmazlıqlara səbəb olan əsas mübahisəli məsələlərdən biridir. Yüz ildən artıq bir müddət ərzində, İranda müəyyən bir ideologiyanın hegemonluğu və millətçilik perspektivindəki oxunuş, bu ölkədəki digər icmalar üzərində mövcud mədəniyyətlərdən birinin zorla tətbiq edilməsi, dərin anlaşılmazlıqlara və qarşıdurmalara yol açmışdır. Bu qarşıdurmalar, yuxarıdan aşağıya doğru tətbiq olunan siyasi güc siyasətinin nəticəsində, zamanla ciddi münaqişəyə çevrilmiş və cəmiyyətdə bir etimadsızlıq dalğası yaratmışdır. Elə ki, İranda mərkəzləşdirilmiş sistemin tərəfdarları da ölkənin güc boşluğuna düşməsindən qorxurlar; çünki onlar da bu gerçəyi bilirlər və bu tarix dönəmi əvvəllər də baş vermişdir.

İranda mərkəzləşdirilmiş sistem, tamamilə hegemonluq və repressiya üzərində qurulmuşdur və güc dəyişməsinə, bölüşdürülməsinə və demokratiyaya qarşı sərt müqavimət göstərir; çünki mərkəzləşmə, İranda gücün toplanmasına səbəb olur və bununla yanaşı, son yüz illikdə hegemonluğun qorunması məqsədilə mədəniyyətin inkişafını əngəlləmişdir. Belə ki, nə özləri azadlıq və demokratiyaya çata bilirlər, nə də İrandakı digər icmalara azadlıq, demokratiya və xilas olma imkanı tanıyırlar. Bu, bir məhbusu həbsxanada saxlayan və özü də həmin həbsxanada qalan bir həbsxana mühafizəçisinin nümunəsidir.

Buna görə də, İranda milli mədəniyyət və kimlik anlayışının fərqli bir yanaşma ilə açıqlanması zəruridir. Milli mədəniyyət və kimlik çoxluqçuluq, plüralizm və fərqliliklərə baxmayaraq bir-birini qəbul etməyə əsaslanaraq ölkədəki mədəni hegemoniyanı aradan qaldıra və müxtəlif cəmiyyətlər üçün bərabər hüquqlar təmin edə bilər. Bu məqsədə nail olmaq üçün atılacaq ilk addım İranda müxtəlif millətlərin və məzhəblərin tanınmasıdır. Son yüz ildə “İran milləti” anlayışının üstün fars mədəniyyət xüsusiyyətlərinə əsaslanması və digər millətləri “İran etnik qrupları” kimi aşağılayıcı bir terminlə ifadə etməsi İranda daxili müstəmləkəçilik sistemini yaradaraq, geri qalmış bir periferiyanı və bütün sahələrdə — elm, incəsənət, iqtisadiyyat və rifah daxil olmaqla — nisbətən zəngin və inkişaf etmiş bir mərkəzi ortaya çıxarmışdır.

Təşkilatın fikrincə, bu əsas addımdan sonra, müxtəlif xalqların qərar qəbuletmə prosesində iştirakını təmin etmək üçün mexanizmlər yaradılmalıdır. Mövcud ayrı-seçkilik və siyasətlərin davamını dayandırmaq üçün, müxtəlif xalqların nümayəndələrinin iştirakı ilə zəruri qanuni tənzimləmələr hazırlanmalı və icra olunmalıdır.

Bu çoxmillətli ölkədə mədəni kimliklərin və dillərin qorunmasını təşviq edən siyasətlərin inkişafı vacibdir. Müxtəlif xalqların dilləri və mədəniyyətləri təhsildə, mediada, mədəni və iqtisadi tədbirlərdə təşviq olunmalıdır.

Ölkədə xüsusi bir milli mədəniyyət və kimlik hegemoniyasının yüz illik təbliği, insan hüquqlarının vəziyyətinə ciddi ziyan vurmuş və nifrət dolu təbliğat dalğası nəticəsində birgəyaşayışa dözümlülük səviyyəsini azaldıb. Bu səbəbdən, yüz illik yaraların sağalması

və yaxşılaşdırılması üçün müxtəlif millətlər arasında qarşılıqlı anlaşmanı artırmaq və mədəni müxtəlifliyi təqdir etmək məqsədilə maarifləndirici proqramlar və kampaniyalar təşkil olunmalıdır. Cəmiyyətdə dözümlülük, hörmət və əməkdaşlıq mədəniyyətini formalaşdırmaq üçün səy göstərmək vacibdir.

Təbii ki, bu tədbirlər yalnız konstitusiya və müxtəlif millətlərin nümayəndələrinin olduğu parlamentin qanunları ilə təmin olunmuş siyasi sistem çərçivəsində mümkündür. Federal parlamentdə müxtəlif millətlərin nümayəndələrinin iştirakı, müxtəlif millətlərin səslərinin eşidilməsini təmin edir və onların hüquqlarının müdafiəsi sahəsində konstitusiyaya əsaslanaraq məcburi tədbirlər görmək səlahiyyətinə malik olmalıdır.

Bu halda ümid etmək olar ki, son yüz ildə ölkədə mövcud olan irqçilik və daxili müstəmləkəçilik nəticəsində yaranmış ziyanlar və yaralar, vətəndaşların, siyasi partiyaların və İran daxilindəki millətlərin vətəndaş cəmiyyəti qurumlarının iştirakı ilə zamanla azala və sönük hala gələ bilər. Beləliklə, fərqli mədəniyyət, dil və irqlərə malik insanların çoxmillətli bir ölkədə dinc yanaşı yaşaması üçün zəmin yaradıla bilər.

## İqtisadiyyat

Azərbaycan Milli Direniş Təşkilatı inanır ki, İran Federal Respublikasının və Azərbaycan əyalət hökumətinin iqtisadiyyatı, iqtisadi azadlıq, sosial ədalət, rəqabət və mülkiyyət hüququ prinsipləri üzərində qurulmalıdır. Hər bir fərdin iqtisadi hüquqlarının qorunması və mülkiyyət hüquqlarının azad bazar sistemi vasitəsilə təmin edilməsi mühüm prinsiplərdən biridir.

İqtisadi hüquqlar hər bir fərd üçün etnik, irqi, cinsi və ya siyasi inanc ayrı-seçkiliyi olmadan təmin edilməlidir. Hər kəsin iqtisadi imkanlara, təhsilə və iqtisadi resurslara bərabər çıxışı olmalıdır. Eyni zamanda, sərvətlərin ədalətli bölgüsü və iqtisadi imkanlara bərabər çıxış imkanı hərtərəfli iqtisadi qurumların əsas prinsiplərindəndir.

İqtisadi institutlar azad, şəffaf və rəqabətli mühitdə fəaliyyət göstərməlidir. Biz inanırıq ki, iqtisadi qurumlar arasında rəqabət

şəraitinin yaradılması və istismarçı və rantiye iqtisadi qurumların yaranmasının qarşısının alınması gələcək federal və əyalət hökumətləri üçün vazkeçilməz bir prinsip olmalıdır. Hökumətin bəzi hallarda iqtisadiyyatda tənzimləyici rol oynaya biləcəyinə inanırıq, lakin ümumilikdə dövlətin iqtisadiyyata müdaxiləsi minimuma endirilməlidir.

Mülkiyyət hüququ azad bazar iqtisadiyyatının əsas prinsiplərindəndir. Mülkiyyət hüquqları qanunla qorunmalı və nəzarətdə saxlanmalıdır. Hər bir fiziki və hüquqi şəxs öz mülkiyyətindən sərbəst şəkildə istifadə edə bilməlidir, hökumətlərin siyasi baxışları fiziki və hüquqi şəxslərin resurslara çıxış və rəqabət imkanlarına təsir göstərməməli və beləliklə rantiye iqtisadiyyatının qarşısı alınmalıdır.

Biz inanırıq ki, azad bazar iqtisadiyyatı iqtisadi inkişaf və vətəndaşların rifahını artırmaq üçün ən yaxşı yoldur. Bu sistem ixtisaslaşmanı və innovasiyanı təşviq edir, iqtisadi sistemin dinamikliyini təmin edir və nəticədə vətəndaşların həyat şəraitini yaxşılaşdırır. Bununla belə, biz hökumətin bazar və ictimai maraqlar arasında balansı qorumaq roluna diqqət yetiririk və hökumətin ictimai xidmətlərin təminində, davamlı ətraf mühitin qorunmasında və cəmiyyətin həssas qruplarını dəstəkləməsindəki rolunu dəstəkləyirik.

Ümumilikdə, Azərbaycan Milli Dirəniş Təşkilatının iqtisadi sahədə məqsədi, iqtisadi hüquqları təmin edən və mülkiyyət hüquqlarını qoruyan azad və rəqabətli bir mühit yaratmaqdır. Bu təşkilat inanır ki, cəmiyyətdə iqtisadi azadlıq və hökumətin tənzimləyici rolunu balansda saxlamaq, davamlı inkişaf və vətəndaşların rifahını artırmaq üçün qorunmalıdır.

**1. İqtisadi Azadlıq:** Azərbaycan Milli Dirəniş Təşkilatının nəzərdə tutduğu iqtisadi sistem, fərdlərin iqtisadi azadlığına xüsusi önəm verir. Bu, hər bir fiziki və hüquqi şəxsin öz iqtisadi qərarlarını qanun və qaydalar çərçivəsində və öz bacarıqlarına uyğun şəkildə qəbul etməsi deməkdir. Azad bazar iqtisadiyyatı şəraitində peşə seçimi, investisiya, ticarət, istehsal və digər iqtisadi fəaliyyətlərdə qanunun aliliyi əsas götürülməli və siyasi gücün istismarına yol verilməməlidir.

**2. Azad Bazar İqtisadiyyatı:** İqtisadi sistem azad və rəqabətli bazar prinsiplərinə əsaslanmalıdır. Bu, qiymətlərin və resursların bölgüsünün bazar qanunları və tələb-təklif əsasında müəyyənləşdirilməsinə imkan verir. Bu sistemdə iqtisadi güc bazarın tələb-təklif mexanizmi və qurumlar arasında ədalətli və şəffaf rəqabət ilə tənzimlənir və dövlətin iqtisadi fəaliyyətlərə müdaxiləsi minimuma endirilir.

**3. Mülkiyyət Hüququnun Qorunması:** Azərbaycan Milli Dirəniş Təşkilatının təklif etdiyi iqtisadi sistem, fiziki və hüquqi şəxslərin mülkiyyət hüquqlarının qorunmasına önəm verir. Mülkiyyət hüququ əsas prinsip olaraq qanunla müdafiə edilir və hər hansı dövlət və ya qeyri-dövlət qüvvəsi tərəfindən pozulması müstəqil məhkəmələr tərəfindən dayandırılır. Bu prinsip, mülkiyyət hüququ olan şəxslərin öz resurs və mülklərindən qanuni şəkildə istifadə etməsinə təminat verir.

**4. Dövlətin Tənzimləyici Rolu:** Azərbaycan Milli Dirəniş Təşkilatının təklif etdiyi iqtisadi sistemdə hökumət tənzimləyici rol oynayır. Hökumətin rolu bazar mexanizmlərini yaxşılaşdırmaq, rəqabəti qorumaq, fərdlərin iqtisadi hüquqlarını dəstəkləmək, ictimai xidmətləri təmin etmək və həssas qrupları qorumaqla məhdudlaşmalıdır. Dövlətin iqtisadiyyata hədsiz müdaxiləsi olmamalı, lakin iqtisadi balans və ədaləti qorumaq üçün zəruri tədbirlər görməlidir. Məsələn, dövlət, ehtiyac duyulan sahələrdə investorları stimullaşdırmaq üçün resurslar ayıra bilər, lakin bu siyasətlərin şəffaf və ədalətli şəkildə həyata keçirilməsi üçün demokratik qurumlar tərəfindən təminat verilməlidir.

**5. Sosial Ədalət:** Azərbaycan Milli Dirəniş Təşkilatının təklif etdiyi iqtisadi sistem, sərvət və iqtisadi imkanların bərabər bölgüsünə sosial ədalət prinsipini əsas götürür. Bu, hər bir fərdin iqtisadi fəaliyyətlərdə bərabər iştirak imkanı və iqtisadi inkişafdan faydalanmasını təmin etməyi nəzərdə tutur. Bu prinsip, yoxsulluğun və iqtisadi bərabərsizliyin yayılmasına qarşı çıxaraq həssas və daha az təmin olunmuş qrupları qorumağı hədəfləyir.

**6. Ədalətli Vergi Sistemi:** Azərbaycan Milli Dirəniş Təşkilatının təklif etdiyi iqtisadi sistem, ədalətli vergi sistemini dəstəkləyir. Bu prinsipə əsasən, insanların alıcılıq qabiliyyəti və gəlirlərinə uyğun

olaraq ədalətli şəkildə vergi ödəməsi vacibdir. Daha yüksək gəlirli şəxslər, ictimai xərclərin və həssas qrupların dəstəyini təmin etmək üçün daha çox məsuliyyət daşımalıdır. Bu səbəbdən, fiziki və hüquqi şəxslərin vergi miqdarı ilə gəliri arasında məntiqi bir balans təmin edilməlidir.

**7. Ətraf Mühitin Qorunması:** Azərbaycan Milli Dirəniş Təşkilatının təklif etdiyi iqtisadi sistem, ətraf mühitin qorunmasına və davamlı inkişafına xüsusi önəm verir. İqtisadi inkişaf ətraf mühitin qorunması ilə yanaşı həyata keçirilməli və təbii resursların qorunması, çirklənmənin azaldılması və biomüxtəlifliyin qorunması istiqamətində tədbirlər görülməlidir. Davamlı inkişaf, sağlam ətraf mühitə bağlıdır.

**8. Ticarət Azadlığı:** Azərbaycan Milli Dirəniş Təşkilatının iqtisadi sistemində ticarət azadlığı və ölkələrarası iqtisadi əlaqələr əhəmiyyətli bir prinsipdir. Azad ticarətin iqtisadi imkanları genişləndirdiyinə, xalqlar arasında əlaqələri gücləndirdiyinə və iqtisadi inkişafı təşviq etdiyinə inanılır. Bu səbəbdən, fiziki və hüquqi şəxslər daxili və xarici ticarət azadlığına sahib olmalı, dövlətin ticarət məhdudiyyətləri üzərindəki gücü qanun və məhkəmə orqanları ilə məhdudlaşdırılmalıdır.

**9. Sahibkarlıq və İnnovasiyanın Dəstəklənməsi:** Sahibkarlıq və innovasiyanın dəstəklənməsi, kiçik və orta bizneslərin inkişafı, texnologiyanın inkişafı, araşdırma və inkişaf fəaliyyəti və innovativ iqtisadi mühitin yaradılması dinamik və inkişaf edən iqtisadiyyatın əsas prinsipləridir. Mülkiyyət və intellektual mülkiyyət hüquqlarına əsaslanan iqtisadi sistem, şəffaf hüquqi və nəzarət sistemi, sərmayəyə və maliyyə resurslarına çıxış imkanı olan azad və rəqabətli bir bazar, innovatorlar və sahibkarlar üçün zəmin yarada bilər və bununla da iqtisadi inkişafı dəstəkləyər.

**10. Ədalətli Rəqabətin Dəstəklənməsi:** Azərbaycan Milli Dirəniş Təşkilatının təklif etdiyi iqtisadi sistem bazarda rəqabətin qorunmasına və inhisarçılığın qarşısının alınmasına əhəmiyyət verir. Sağlam rəqabət və müxtəlif məhsul və xidmətlər arasında sərbəst seçim, bazarda keyfiyyətin yüksəlməsi və ədalətli qiymətlərin təmin edilməsinə kömək edir.

**11. Əməkçi hüquqlarının qorunması:** Azərbaycan Milli Dirəniş Təşkilatının təklif etdiyi iqtisadi sistem, işçilərin hüquqlarının qorunmasına və ədalətli iş şəraitinin yaradılmasına xüsusi diqqət yetirir. Bu sistem, həmkarlar ittifaqları yaratmaq və kollektiv danışıqlar aparmaq kimi işçi hüquqlarını dəstəkləyərək iş məmnuniyyətsizliyini azaltmaq və işçilər üçün təhlükəsiz və sağlam bir iş mühiti təmin etməyi hədəfləyir. Layiqli həyat üçün yetərli hüquq və sosial təminatları əhatə edən geniş qanunların tətbiqi birbaşa iqtisadi məhsuldarlığın artmasına kömək edir. Bundan əlavə, belə siyasətlər cəmiyyətin təhlükəsizlik və psixoloji sağlamlığını yaxşılaşdırır, çünki işçilər daha təhlükəsiz və davamlı şəraitdə çalışırlar. Davamlı təlim və nəzarət proqramları işçi təhlükəsizliyinin və sağlamlığının artırılmasında mühüm amillərdir. Nəticə etibarilə, bu məsələlərə diqqət yetirilməsi yalnız işçilərin rifahına deyil, bütövlükdə cəmiyyətin və milli iqtisadiyyatın xeyrinədir.

**12. Ayrı-seçkilikdən qaçınma:** Azərbaycan Milli Dirəniş Təşkilatının İran Federal Respublikası və Azərbaycan üçün nəzərdə tutduğu iqtisadi sistem, cinsiyyət, irq, din, millət və digər amillərə görə fərdlərə qarşı hər hansı ayrı-seçkiliyin qarşısını alacaq. Bu prinsip, bütün şəxslərin bərabər hüquq və imkanlara malik olması və institutların hər hansı ədalətsiz yanaşmadan qorunması zərurətinə əsaslanır. İqtisadi sistemdə hər cür ayrı-seçkilik azad və ədalətli rəqabət prinsipini pozur və ona qarşı inamsızlığı artırır. Ayrı-seçkilik, bərabərsizliyə və korrupsiyaya səbəb olur ki, bu da iqtisadiyyatı bir virus kimi zəiflədir və onun inkişafını və tərəqqisini əngəlləyir.

**13. Şəffaflıq:** Azərbaycan Milli Dirəniş Təşkilatının fikrincə, demokratiya ilə iqtisadi inkişaf arasında sıx və birbaşa əlaqə mövcuddur və şəffaf bir hüquq sistemi olmadan davamlı iqtisadi inkişafa nail olmaq mümkün deyil. Biz hökumətin iqtisadi qərarlarında şəffaflığa və vətəndaşların qərar qəbuletmə prosesində iştirakının təmin olunmasına önəm veririk. Şəffaflıq həmçinin iqtisadi qurumların fəaliyyətləri və iqtisadi qərarlarla bağlı məlumatlara ümumi çıxış imkanını nəzərdə tutur. Dövlət qurumları, digər qurumlar kimi, makro və mikro iqtisadiyyata aid məlumatları və özəl sektora dair statistik məlumatları ictimaiyyətə təqdim etməyə borcludur.

Şəffaflıq ictimai audit imkanını təmin edərək korrupsiyanın qarşısını

ala bilər və iqtisadi cinayətkarları və pozuntu törədənləri məhkəmə nəzarətinə təqdim edə bilər. Şəffaflıq, ictimaiyyətin dövlətin fəaliyyətləri və müvafiq qərarlarla bağlı məlumat sahibi olmasına şərait yaradır və bunun nəticəsində ölkədə ictimai etimad artır.

**14. Vətəndaşların iştirakı ilə idarəetmə:** Azərbaycan Milli Dirəniş Təşkilatı inanır ki, vətəndaşların iştirakı və şəffaflıq bir medalın iki üzüdür və bir-birini tamamlayır. Bu yolla, bütün vətəndaşlar iqtisadi məsələlərlə bağlı dəqiq və düzgün məlumatların müvafiq qurumlar tərəfindən yayımlanması ilə demokratik qərar qəbuletmə prosesində iştirak edərək iqtisadi məsələlərə təsir edə bilərlər.

**15. Vergi:** Azərbaycan Milli Dirəniş Təşkilatının fikrincə, ölkənin vergi sistemi ədalət, səmərəlilik, şəffaflıq və hesabatlılıq prinsipləri üzərində qurulmalıdır. Ədalət baxımından, vergi məbləği fiziki və hüquqi şəxslərin gəlirləri ilə məntiqi şəkildə uyğunlaşmalıdır. Bu yanaşmaya görə, yüksək gəlirli şəxslər gəlirlərinin daha yüksək faizini vergi olaraq ödəməlidirlər. Bu yanaşmanın məqsədi iqtisadi bərabərsizliyi azaltmaq və ictimai xidmətlərin göstərilməsi üçün zəruri maliyyə resurslarını təmin etməkdir.

Mövcud qlobal iqtisadi sistemin mürəkkəbliyi ilə yanaşı, vergi siyasəti sosial ədaləti yaxşılaşdırmaq məqsədi daşımalıdır; lakin eyni zamanda vergi sisteminin səmərəliliyi də diqqət mərkəzində olmalıdır. Vergi sistemi iqtisadi təşəbbüsləri təşviq edəcək və investisiya qoyuluşuna mane olmayacaq şəkildə tərtib edilməlidir. İnvestisiyalar üzrə vergi dərəcələrinin aşağı salınması iqtisadi fəaliyyətləri stimullaşdıra və məşğulluğun artmasına səbəb ola bilər. Məsələn, bəzi ölkələrdə yeni qurulan şirkətlər və ya yüksək texnologiyalı şirkətlər üçün aşağı vergi dərəcələri tətbiq olunur. Bundan əlavə, hökumət verginin yığılması və xərclənməsi ilə bağlı ictimaiyyətə məlumat verməyə və hesabatlı olmağa borcludur. Təhsil, səhiyyə və infrastruktur kimi ictimai xidmətlər üçün lazım olan vəsaitlərin vergi gəlirləri vasitəsilə təmin edilməsi, vətəndaşların həyat keyfiyyətini yaxşılaşdırmağa və bərabər imkanların artmasına kömək edir. Vergidən yayınma da bir çox ölkələrdə mühüm problemlərdən biridir. Vergi qaçaqlığını azaltmaq və ədalətli vergi yığılmasını təmin etmək üçün qanunverici orqanların mexanizmləri və müstəqil məhkəmə nəzarəti ilə təmin edilən nəzarət mexanizmləri vergi qaçaqlığının qarşısını ala bilər.

**16. Büdcə:** Biz, Azərbaycan Milli Dirəniş Təşkilatı olaraq, inanırıq ki, Qacarların Məmalik-i Mahruse idarəçiliyinin dağılmasından sonra tətbiq edilən daxili müstəmləkəçilik siyasətləri, ölkədə ədalətsiz bir sistem yaratmaq məqsədilə məcburi birləşdirmə siyasətlərini hakim etmişdir və bu, İran daxilindəki müxtəlif millətlərin yaşadığı bölgələrin ciddi geri qalmasına və inkişaf etməməsinə səbəb olmuşdur. Bu ədalətsiz sistemə son qoymaq üçün, müasir demokratik prinsiplərə və bəşəri dəyərlərə əsaslanaraq federal hökumət və əyalətlər arasında büdcə bölgüsü sistemi dəqiq şəkildə tənzimlənməli və qarşılıqlı razılıq əsasında həyata keçirilməlidir.

Bu əsasda, Azərbaycan Milli Dirəniş Təşkilatı inanır ki:

*1. Federal hökumət və əyalətlərin maliyyə resurslarının təminatı qarşılıqlı razılaşma əsasında həyata keçirilməlidir.*

*2. Hər bir əyalətin büdcədən payının müəyyən edilməsi üçün əhali sayı, iqtisadi inkişaf səviyyəsi, bölgələrin xüsusi ehtiyacları və digər mühüm amillər nəzərə alınmalıdır.*

*3. Hər bir əyalət, təhsil, səhiyyə, asayiş və təhlükəsizlik, infrastruktur kimi sahələrdə öz proqramlarını müəyyənləşdirməkdə məsuliyyət daşımalı və bu sahələr üçün ayrılan büdcəni federal hökumətdən müstəqil şəkildə tənzimləyib təsdiq etməlidir.*

*4. Bütün əyalətlər maliyyə resurslarının təminatı və müdafiə, xarici əlaqələr və regional inkişaf kimi sahələrdə ortaq proqramların həyata keçirilməsi üçün federal hökumətlə "müzakirə və razılaşma" prinsipinə əsasən əlaqə və əməkdaşlıq etməlidirlər.*

*5. Federal Məclis, federal hökumət və əyalətlər arasında maliyyə resurslarının düzgün və ədalətli bölüşdürülməsinə nəzarət etməkdən məsul olacaq ki, büdcənin paylanmasında lazımi balans və uyğunluq təmin olunsun.*

*6. Vergi gəlirlərinin əyalətlər və federal hökumət arasında bölüşdürülməsi ilə bağlı qərarlar razılaşma yolu ilə qəbul ediləcək. Federal hökumətin və əyalətlərin nümayəndələrindən ibarət heyət, əməkdaşlıq və məsləhətləşmə ilə bu gəlirlərin bölüşdürülməsi ilə bağlı qərarları qəbul edəcək.*

## Hakimiyyətlərin bölünməsi

İran Federal Respublikasında dövlət sistemində qüvvələrin ayrılması, dövlətin müxtəlif qurumları arasında səlahiyyət və vəzifələrin üfüqi və şaquli şəkildə bölüşdürülməsi yolu ilə həyata keçirilir.

Üfüqi Bölünmə üç əsas qüvvə -icra, qanunverici və məhkəmə- arasında güc bölgüsünü nəzərdə tutur. Bu üç qüvvə bir-biri ilə qarşılıqlı əlaqədə olmaqla yanaşı, müstəqil şəkildə fəaliyyət göstərir ki, hakimiyyət bir qurumun və ya şəxsin əlində cəmləşməsin. Qüvvələrin ayrılması, federal və digər demokratik hökumət sistemlərinin əsas prinsiplərindən biridir.

Şaquli Bölünmə isə səlahiyyətlərin mərkəzi hökumət və əyalət hökumətləri arasında paylanmasını nəzərdə tutur. Federal sistemlərdə mərkəzi hökumət və əyalət hökumətləri hər biri özünəməxsus vəzifə və səlahiyyətlərə malikdir. Mərkəzi hökumət milli və beynəlxalq məsələlərdən, məsələn, milli müdafiə, xarici siyasət və beynəlxalq ticarətdən məsuldur. Əksinə, mərkəzləşdirilmiş hökumətlərdə əyalətlər və şəhərlər yalnız mərkəzi hökumətin əmrlərini yerinə yetirir və yerli qərarvermə səlahiyyətləri məhduddur.

Federal sistemdə isə siyasi güc şaquli olaraq bölünür və yerli hökumətlər bəzi sahələrdə müstəqil qərarlar qəbul etmək üçün daha çox səlahiyyətə sahib olur. Bu səlahiyyətlər adətən konstitusiyada və ya mərkəzi və yerli hökumətlər arasında razılaşmalarla müəyyən edilir. Həm mərkəzi, həm də əyalət səviyyəsində fəaliyyət göstərən hökumət qurumları müəyyən sahələrdə müstəqil gücə malikdir və paralel şəkildə çalışır, heç biri tamamilə digərinə tabe olmur.

Buna görə də, çoxmillətli İran üçün federal konstitusiya ilə təmin edilmiş üfüqi və şaquli güc bölgüsü hakimiyyətin mərkəzləşdirilməsinin qarşısını almağa, səmərəliliyi və hesabatlılığı təmin etməyə, fərdi hüquq və azadlıqları qorumağa və müxtəlif regionlardakı mədəni, etnik və iqtisadi fərqliliklərə uyğunlaşmağa kömək edəcək. Şaquli güc bölgüsü nəticəsində nə mərkəzi, nə də əyalət səviyyəsində hər hansı bir dövlət qurumu bütün hakimiyyəti öz əlində toplaya bilməz və bu, güc mərkəzləşməsini,

hakimiyyətdən sui-istifadəni və istibdadı minimuma endirir. Yerli hökumətlər mərkəzi hökumətin fəaliyyətini, eləcə də əksinə, nəzarətdə saxlaya bilər. Bu qarşılıqlı nəzarət hədsiz güc toplamaq arzusunun qarşısını alır və fərdi azadlıqları təmin edir. Bu idarəetmə sistemi, demokratiyaya keçid prosesində, mərkəzi İran əhalisi də daxil olmaqla bütün sakinlər üçün müsbət təsirlər yaradacaqdır.

Ümumilikdə, federal sistemlər üfüqi və şaquli güc bölgüsü ilə həm hakimiyyətin səmərəliliyini artırmaq, həm də fərdi hüquq və azadlıqları qorumaq üçün mərkəzləşmə və güc bölgüsü arasında balans yaratmağa çalışır.

## Davamlı İnkişaf və Ətraf Mühit

Bu gün inkişaf etmiş ölkələrdə davamlı inkişafın sağlam ətraf mühitlə birbaşa əlaqədə olduğu geniş qəbul edilən bir həqiqətdir. Biz inanırıq ki, ətraf mühitə ciddi diqqət yetirmədən gələcək nəsillərə möhkəm bir iqtisadiyyat miras qoymaq mümkün deyil. Kolonial siyasətlər Azərbaycanın ətraf mühitinə ciddi ziyan vurmuşdur. Azərbaycan Milli Direniş Təşkilatı olaraq təbii resursların qorunması, iqlim dəyişikliyi ilə mübarizə və enerji səmərəliliyi siyasətlərini ətraf mühitin qorunması və davamlı inkişafa nail olmanın əsas prinsipləri hesab edirik. Hökumətin təşviqedici qanunlar qəbul etməklə ictimaiyyətin iştirakı cəlb oluna bilər və bir çox layihələr özəl sektor, kooperativlər və qeyri-hökumət təşkilatlarının iqtisadi töhfəsi ilə uğurla həyata keçirilə bilər.

Davamlı inkişaf və ətraf mühitin qorunması arasında sıx əlaqə mövcuddur və cəmiyyətimizin sağlamlığı və rifahı üçün həyati əhəmiyyət daşıyır. Bu siyasətlərin tətbiqi ilə həm iqtisadi inkişaf təşviq edilir, həm də təbii resurslarımızın qorunması ilə ölkənin iqtisadi davamlılığı təmin olunur.

### 1. Yenilənəbilən enerji mənbələrinə keçidin təşviqi

- *Enerji mənbələrinin müxtəlifləşdirilməsi üçün təşviqlər və investisiyalar təmin ediləcək.*
- *Külək, günəş və hidroenerji kimi yenilənəbilən enerji*

*mənbələrindən istifadənin əhəmiyyəti vurğulanacaq.*

- *Enerji səmərəliliyini artırmaq və fosil yanacaqlara olan asılılığı azaltmaq məqsədilə qanunvericilik təşəbbüsləri dəstəklənəcək.*

**2. Təbii resursların idarə edilməsi**

- *Meşələr, su ehtiyatları və kənd təsərrüfatı torpaqlarının davamlı istifadəsini təşviq edən yeni qaydalar hazırlanacaq. Torpaq və su resurslarından həddindən artıq istifadə qısamüddətli dövrdə sərfəli ola bilər, lakin gələcək nəsillər üçün bərpa olunmaz problemlər yaradır.*

- *Meşələrin qorunması və meşə əkin layihələri dəstəklənəcək. Həm dövlət, həm də qeyri-hökumət təşkilatları tərəfindən ağacəkmə kampaniyaları təşviq ediləcək.*

**3. Tullantıların idarə edilməsi**

- *Tullantıların azaldılması və təkrar emalı təşviq edən siyasətlər həyata keçiriləcək. Özəl sektor üçün tullantıların təkrar emalı və onlardan enerji istehsalı üçün müəssisələr yaratmağa təşviqlər veriləcək.*

- *Zərərli kimyəvi maddələrdən istifadəyə nəzarət və sənaye, eləcə də tibbi tullantıların idarə edilməsi ciddi nəzarət altında olacaq.*

- *Məktəblərdə təhsil vasitəsilə evlərdə tullantıların ayrılması mədəniyyəti təşviq edilməli və ətraf mühitə həssas bir nəslin yetişdirilməsi məqsədilə yayılmalıdır.*

**Ətraf Mühitin Çirklənməsi və İqlim Dəyişikliyi ilə Mübarizə**

Karbon emissiyalarının azaldılması siyasətləri daha təmiz və sağlam hava əldə etmək məqsədilə həyata keçiriləcəkdir. Fosil yanacaqların böyük şəhərlərdə, xüsusilə Təbrizdə enerji stansiyalarında yandırılması nəticəsində yaranan hava çirklənməsi vətəndaşların sağlamlığı üçün ciddi problemə çevrilmişdir. Keyfiyyətsiz avtomobillər, standartlara cavab verməyən yanacaqlar

və müasir, tamamilə inteqrasiya edilmiş ictimai nəqliyyat sisteminin olmaması Güney Azərbaycanın şəhərlərində hava çirklənməsi problemlərinin əsas səbəbləridir.

Enerjiyə qənaət edən və ekoloji cəhətdən təmiz "yaşıl evlərin" tikintisi və mövcud yaşayış yerlərinin təkmilləşdirilməsi üçün təşviqlər Cənubi Azərbaycan üçün təmiz və sağlam ətraf mühit proqramlarımızın əsas prioritetləri arasında olacaqdır.

İqlim dəyişikliyinin təsirlərinə qarşı mübarizə aparmaq üçün uyğunlaşma strategiyaları inkişaf etdirilərək bu sahədə hazırlıqlar görüləcəkdir. Cənubi Azərbaycan xüsusilə su resursları və kənd təsərrüfatı sahələrində uyğunlaşma tədbirlərinə ciddi ehtiyac duyur. Məsələn, su resursları sahəsində kənd təsərrüfatı, sənaye və məişət istifadəsi üçün suyun səmərəliliyini izləmək və tənzimləmək məqsədilə proqramlar hazırlanacaq. Ənənəvi suvarma üsulları ləğv edilməli və yüksək məhsuldarlığa malik suvarma üsulları təşviq olunmalıdır. Kənd təsərrüfatında uyğunlaşma strategiyası çərçivəsində məhsulların saxlanması, daşınması və bazarlanması üçün infrastrukturun gücləndirilməsinə sərmayə yatırılacaq. Fermerlər yalnız bir məhsuldan asılı qalmadan müxtəlif gəlir mənbələri yaratmağa təşviq ediləcək. Eyni zamanda, fermerlər müasir kənd təsərrüfatı texnikaları və iqlim şəraitinə uyğun kənd təsərrüfatı məhsulları barədə maarifləndiriləcək və bu istiqamətdə dəstəklənəcəklər.

Təbii ərazilərin və biomüxtəlifliyin qorunması üçün mühafizə zonaları genişləndiriləcək. İctimai nəqliyyat sistemlərinin yaxşılaşdırılması və yaşıl nəqliyyatın təşviqi üçün investisiyalar təmin ediləcəkdir. Qanunvericilər elektrik avtomobilləri və təmiz texnologiyalardan istifadəyə stimullar təqdim edən qanun və qaydalar hazırlamalıdırlar.

İctimaiyyəti ətraf mühit mövzusunda maarifləndirmək məqsədilə geniş maarifləndirmə kampaniyaları təşkil ediləcək və məktəblərdə ətraf mühitlə bağlı tədris proqramları dərsliklərdə və təlim fəaliyyətlərində gücləndiriləcəkdir.

Yuxarıda göstərilən tədbirlər Azərbaycan Milli Direniş Təşkilatının Cənubi Azərbaycanda davamlı inkişaf və ətraf mühitin qorunması

istiqamətində ümumi yanaşmasının bir neçə nümunəsidir. Davamlı inkişaf və ətraf mühitin qorunması sahəsində müxtəlif ölkələrin, xüsusilə Qərb ölkələrinin təcrübələrindən istifadə etmək Güney Azərbaycanda yerləşən hökumətin proqramlarının əsas prioritetlərindən biri olmalıdır.

## Sosial Ədalət

Azərbaycan Milli Dirəniş Təşkilatı inanır ki, cəmiyyətdəki iqtisadi və sosial fərqliliklər real və qaçılmazdır; lakin bu fərqliliklər cəmiyyətin ən zəif üzvlərinə maksimum fayda gətirəcək şəkildə olmalıdır. Ədalətli fərqlilik prinsipinə və ya digər sözlə desək, ədalətli bərabər imkan prinsipi əsasında, mövcud fərqlilikləri qəbul edərək, elə bir proses izlənməlidir ki, insanların rifah səviyyəsini yaxşılaşdırsın, eyni zamanda fərqliliklər ədalətsiz və ya insafsız şəkildə ayrı-seçkiliyə və ya hüquqların pozulmasına səbəb olmasın. Məsələn, bir cəmiyyətdə gəlir və sərvət fərqlilikləri mövcud ola bilər, lakin bu fərqliliklər elə bir şəkildə olmalıdır ki, zəif vəziyyətdə olan insanlar əsas hüquqlara və bərabər imkanlara çıxış və dəstək əldə edə bilsinlər. Təşkilatımızın nəzərdə tutduğu cəmiyyətdə sosial ədaləti təmin etmək üçün gəlirlərə uyğunlaşdırılmış vergi sistemi tənzimlənməlidir.

Bu vergi sistemi, yüksək gəlirli şəxslərin gəlirlərinin nisbətən daha çox hissəsini vergi olaraq ödəməsini təmin edərkən, aşağı gəlirli şəxslərdən gəlirlərinin daha az hissəsini vergi olaraq ödəməyi tələb edir. Bu cür vergi sistemi, fərqlilikləri qəbul edərək sosial ədalətə nail olmağa kömək edə bilər.

Azərbaycan Milli Dirəniş Təşkilatının sosial ədaləti təmin etmək istiqamətində təklif etdiyi digər bir nümunə də ali təhsildə tələbələrə verilən dəstəkdir. Tələbələr, iqtisadi vəziyyətlərinə uyğun olaraq aşağı faizli kreditlərdən və ya dövlət təqaüdlərindən yararlana bilərlər. Dövlət, universitetlər tərəfindən qəbul olunan tələbələrə ailələrinin sosial sinifinə görə aşağı faizli kreditlər təmin edə bilər və maliyyə imkanı olmayan tələbələrə təqaüd şəklində dəstək göstərə bilər. Bu, tələbələrin təhsil almalarını asanlaşdıraraq sosial bərabərliyi gücləndirə bilər.

Biz paylayıcı ədalət prinsiplərinə inanırıq ki, bu prinsip cəmiyyətdəki təbii və sosial fərqliliklərə diqqət yetirir və iqtisadiyyat və cəmiyyətdə rəqabətin zəruriliyini nəzərə alaraq, bu fərqliliklərin cəmiyyətin həssas üzvləri üçün mümkün olan ən yüksək faydanı təmin edəcək şəkildə bölüşdürülməli olduğuna inanırıq. Resursların və imkanların azadlıq və cəmiyyətdəki fərdlər arasında qarşılıqlı razılıq əsasında ədalətli şəkildə paylanmasına diqqət yetiririk. Bununla belə, bazar iqtisadiyyatı iqtisadi və sosial rifahı təmin etmək üçün ən yaxşı vasitədir və dövlətin bazarın tənzimlənməsi və nəzarətində məhdud rol oynamasını ideal hesab edirik. Bizim üçün əsas hüquqların təmin edilməsi, qanunun aliliyinin gücləndirilməsi və şəxsi və iqtisadi azadlıqların təminatı vacibdir.

Bazar iqtisadiyyatının təklif-tələb mexanizmləri və ədalətli qanunlar vasitəsilə resurs və imkanların təbii və optimal şəkildə bölüşdürülməsini təmin etdiyinə inanırıq.

İran İslam Respublikasında ədalətsiz sərvət və iqtisadi resurs bölgüsü, işsizlik və ölkənin müxtəlif bölgələrində məşğulluq bərabərsizliyi, gender bərabərsizliyi və bunun nəticəsində iş imkanlarına və müxtəlif sahələrdə uğur qazanmaq imkanına bərabər çıxışın olmaması, uşaqlar, yaşlılar, əlillər kimi həssas qruplara yetərli dəstəyin göstərilməməsi kimi problemlər ədalətli cəmiyyət qurulmasında böyük maneələr yaradır. Bu qrupların imkanlara və sosial resurslara çıxışında ciddi məhdudiyyətlər mövcuddur.

Azərbaycan Milli Direniş Təşkilatının bazar iqtisadiyyatı və sosial ədalət proqramı, insanların rifahını və həyat şəraitini yaxşılaşdırmaq üçün ətraflı həll yolları təqdim edir.

Sosial ədalət birbaşa dövlətin və siyasi sistemin şəffaflığı ilə əlaqəlidir. Xüsusilə maliyyə və inzibati sahədə şəffaflıq korrupsiya və sui-istifadələrin qarşısını ala bilər. Korrupsiya resursların ədalətsiz bölüşdürülməsinə təsir göstərərək sosial ədalətə mənfi təsir göstərə bilər. Maliyyə və milli resursların bölgüsü və istifadəsində şəffaflıq sosial ədalətin təmin olunmasına kömək edir. Buna görə də, sosial ədalət səviyyəsini artırmaq üçün maliyyə şəffaflığını artırmağa ehtiyacımız var ki, Azərbaycanda və ölkədə korrupsiyanın qarşısı alınsın.

Bu məqsədlə Azərbaycan Milli Dirəniş Təşkilatı maliyyə şəffaflığını artırmaq üçün qabaqcıl ölkələrin təcrübələrindən istifadə edərək veb texnologiyasının tətbiqi, beynəlxalq nəzarəti qəbul etmə, daxili qanun və qaydaların gücləndirilməsi, büdcə və maliyyə hesabatlarının açıqlanması və ictimai iştirakın təşviqi istiqamətində tədbirlər həyata keçirməyi planlaşdırır. Bu tədbirlər korrupsiyanın qarşısını alaraq maliyyə resurslarının ədalətli bölüşdürülməsi ilə sosial ədaləti yüksəltməyi hədəfləyir.

## Azlıqların, fərdlərin və cəmiyyətin hüquqları

Bizim baxışımıza görə, iştirakçı demokratiya fərdi hüquqlar nəzərə alınmadan bir cəmiyyətdə tətbiq edildikdə çoxluğun diktaturasına yol aça bilər. Fərdi azadlıqları, qanunun aliliyini və azlıq hüquqlarını təmin etməyən qanunlar, kütlələrin diktaturasına və populyarçıların hakim olduğu totalitarizmə gətirib çıxara bilər. Yalnız demokratiyanın fərdi azadlıqlarla birləşməsi cəmiyyət və fərd hüquqlarını ahəngdar bir tarazlıqda təmin edə bilər. Başqa sözlə, ədalətli və demokratik bir hökumət üçün yalnız səsvermə kifayət deyil; fərdi və qrup hüquqları da təmin edilməlidir. Tarix göstərmişdir ki, bəzi hallarda yalnız səsvermə, xüsusilə fərdi və kollektiv əsas hüquqlar nəzərə alınmadıqda, diktatura və ya hətta totalitarizmə gətirib çıxaran siyasətlərin inkişafına səbəb ola bilər.

Bir çox ölkə və cəmiyyət üçün əsas çətinlik fərdi hüquqların qorunması ilə dövlətin məsuliyyətləri arasında tarazlığı tapmaqdır. Bu tarazlıq yalnız güclü bir siyasi və sosial mədəniyyətin yaradılması ilə təmin edilə bilər ki, həm insan hüquqları, həm də demokratiya prinsipləri tam şəkildə həyata keçirilsin. Demokratiya və insan hüquqları bir sistemdə birləşdirildikdə, insan ləyaqətinə aid hüquq dəyərləri heç vaxt səsverməyə qoyulmur. Məsələn, demokratik cəmiyyətdə əsas hüquq və azadlıqlar ümumi səsverməyə çıxarılmır. İnsan hüquqlarına və əsas azadlıqlara səsvermə onların təhdid olunmasına səbəb ola bilər.

Əsas hüquq və azadlıqlar cəmiyyətin əksəriyyətinin fikrinə görə dəyişdirilə bilməz. Məsələn, ifadə azadlığı, inanc və vicdan azadlığı, etiraz hüququ, təhsil hüququ, yaşamaq hüququ və mülkiyyət

hüququ insan hüquqlarının əsasını təşkil edir və heç bir halda ümumi səsverməyə çıxarılmamalıdır. Bu hüquqlar insan ləyaqətinin toxunulmaz hissələridir və demokratik sistemlərdə qorunmalıdır.

Demokratik cəmiyyətlərdə azlıqların hüquqları ümumi səsvermə və referendum yolu ilə həll edilə bilməz. Azlıqların hüquqları demokratik dəyərləri və insan hüquqlarının yüksək mövqeyini qorumaq üçün həyati əhəmiyyət kəsb edir. Milli və etnik azlıqların, irqi və cinsi qrupların, dini və məzhəbi azlıqların azadlıq və hüquqları əsas hüquqlar hesab olunur və bu hüquqları referendum yolu ilə səsverməyə çıxarmaq çoxluğun diktaturasını gücləndirə bilər.

Bu cür demokratik sistemlərdə azlıqların hüquqları sadəcə toxunulmaz deyil, həm də onların siyasi, iqtisadi və mədəni işlərdə aktiv iştirakını təmin etmək üçün hüquqi mexanizmlər qurulmalıdır. Klassik demokratiya və insan hüquqlarının birləşməsindən ibarət olan demokratik cəmiyyətlərdə əsas insan hüquqları müzakirəyə və ya səsverməyə çıxarıla bilməz.

Azərbaycan Milli Diraniş Təşkilatı olaraq biz fərdi və ictimai azadlıqları təmin edən, hüququn aliliyinə əsaslanan bir demokratiyaya inanır və fərdi və sosial azadlıqların təminatına sadiqik.

Bizim baxışımıza görə, iqtisadi, mədəni və bədii azadlıqlar, fərdi və ictimai azadlıqlar, fikir azadlığı və onun yayılması dövlətçilik və maksimum dövlət müdaxiləsi düşüncəsi ilə əsaslı şəkildə ziddiyyət təşkil edir. Bizim nəzərimizdə insan hər şeyin mərkəzində dayanır və cəmiyyətin fərdləri dövlət üçün deyil, dövlət insanlar üçündür. Bu, o deməkdir ki, hökumət və onun konstitusiyası dogmatik ideologiyalara əsaslanmamalıdır.

Dövlət, qanunun aliliyi, demokratiya, əsas hüquqların qorunması, daxili və xarici təhlükəsizliyin təmin edilməsi, şəffaflığın üstün tutulması və iqtisadi inkişafın təşviqi kimi məqsədləri öz varlıq çərçivəsində müəyyənləşdirməlidir. Hökumət, dini-məzhəbi ideologiyalar və ya müzakirəyə açıq olmayan, dəyişdirilə bilməz ideologiyalar və metafizik inanc sistemlərindən hər cür legitimləşdirmə təşəbbüsündən uzaq olmalıdır.

Müasir insan, vətəndaş olaraq, zaman keçdikcə miflər üzərində qurulmuş ənənəvi dövləti dəyişdirərək, insan və onun hüquqlarını

mərkəzə qoyan idarəetmə sistemləri qurmuşdur. Buna görə də, dövlətin milli varlığın davamlılığı üçün əhəmiyyətini qəbul edərək, inanırıq ki, konstitusiya vasitəsilə dövlətin fərdi və ictimai işlərə və vətəndaşların iqtisadi azadlıqlarına müdaxiləsinə səbəb olan səlahiyyətləri məhdudlaşdırılmalı və dövlətin vətəndaşlarına qarşı səlahiyyətləri açıq şəkildə müəyyən edilməlidir.

Ən sadə və eyni zamanda ən əsas məhdud hökumət xüsusiyyətlərindən biri qüvvələrin ayrılığı prinsipidir. Əgər qüvvələrin ayrılığı həqiqi mənada həyata keçirilərsə və məhkəmə sistemi müstəqil şəkildə fəaliyyət göstərərsə, vətəndaşların hüquqları dövlətin digər qurumlarına qarşı qorunar və dövlətin müdaxiləçi və ya avtoritar mexanizmləri məhdudlaşdırılar.

Totalitar hökumətlər, o cümlədən İran İslam Respublikası, əksəriyyətin mövqeyinə əsaslanaraq tətbiq etmək istədikləri qanunlara legitimlik qazandırmağa və azlıqları təbii olaraq əksəriyyətə tabe etməyə çalışır. Azlıqların əksəriyyətə tabe olması ideyası demokratik cəmiyyətlərdə yalnız seçkilərlə əlaqəli başa düşülə bilər, hüquqlar baxımından isə qəbul olunmaz. Bizim baxışımıza görə, azlıqlar — ideoloji, dini, dil, etnik, milli və cinsi yönümlərə malik bütün qruplar da daxil olmaqla — öz hüquq və azadlıqlarından tam şəkildə faydalanmalıdır. Qanunlar elə şəkildə hazırlanmalıdır ki, dövlət öz alətləri, o cümlədən polis qüvvələri vasitəsilə azlıqların hüquqlarını əksəriyyətə qarşı qorusun və cəmiyyətin bütün təbəqələrinin hüquqlarını təmin etsin.

Demokratik bir hökumət bütün fəaliyyətlərində şəffaf və hesabatlı olmalıdır. İnsanların hökumətin müxtəlif qurumlarının tədbir və fəaliyyətlərindən davamlı şəkildə xəbərdar olmaq və onları dəyərləndirmək hüququ vardır. Dövlətin iqtisadiyyat, xarici siyasət və müxtəlif qurumların vətəndaşların rifahına dair fəaliyyətləri sahəsində qərar və tədbirləri ictimaiyyətin ixtiyarına verilməlidir.

Vətəndaşların qərarvermə proseslərində fəal iştirakı və ictimai işlərdə iştirak səviyyəsi həmin cəmiyyətdəki demokratiya mədəniyyətinin göstəricisidir. Buna görə də, vətəndaşların seçilmiş hökumətin fəaliyyətini izləməsi və məsuliyyət tələb etməsi üçün təlim və mədəniyyətin inkişaf etdirilməsi vacibdir. Güclü demokratiyanın qurulması üçün demokratik prinsiplərə əsaslanan

təlim və maarifləndirmə yüksək əhəmiyyətə malikdir.

## Qadınların və uşaqların hüquqları

Bəzi ənənəvi geri qalmış baxışlar qadınları yalnız ev rolu ilə məhdudlaşdırır, qadınlar üçün bəzi peşələrdə sosial məhdudiyyətlər, ailədə qadınlara qarşı ənənəvi öhdəlik və məsuliyyətlər, eləcə də ənənəvi mədəniyyət tərəfindən təyin olunmuş gözəllik standartları və davranış stereotiplərini əhatə edir. Azərbaycan Milli Direniş Təşkilatı olaraq biz qadına qarşı bəzi ənənəvi geri qalmış baxışları rədd edir və inanırıq ki, qadın bir insan olaraq kişi ilə bərabər iradə azadlığına malikdir və heç bir qanun geri qalmış ənənəvi mədəniyyət əsasında hazırlanmalı deyil. Qadının ənənəvi bir rolu qəbul etməsi yalnız onun öz iradəsinə bağlıdır; lakin ailə və qadınlarla bağlı qanunlar heç bir halda ənənəvi baxışlara əsaslanmamalıdır.

Qadınların öz bədənləri üzərində qərarvermə hüququ, gender bərabərliyinə və insan hüquqlarına çatmaq üçün atılacaq ən əsas və ilk addımdır. Bir insanın öz bədəni üzərində qərar vermək hüququ əsas insan hüququdur. Qadınların öz bədənləri üzərində qərar vermə hüququ, tibbi qərarlar, hamiləliklə bağlı hüquqlar, cinsi seçimlər, geyim və paltar seçimi və bədənləri ilə bağlı digər şəxsi üstünlükləri əhatə edir. Bu hüquq qadınlara bədənləri üzərində tam nəzarət etməyə və öz həyatlarını azad iradə ilə yönləndirməyə imkan verir.

Bu hüquq qadınların sağlamlıqla bağlı qərarları azad şəkildə qəbul etməsini də əhatə edir. Məsələn, bir qadın hamiləliyin qarşısını alma üsulları, doğum planlaması, abort və s. haqqında qərar vermək hüququna malikdir.

İş və məşğulluq məsələsində, qadınların maliyyə müstəqilliyini təmin etmək üçün qanunlar bərabər hüquqlar əsasında tərtib olunmalıdır. Eyni zamanda, təhsil, səyahət və mülkiyyət hüquqları ilə bağlı qanunlar da hüquq bərabərliyi prinsipi əsasında hazırlanmalıdır.

Təhsil və maarifləndirmə isə məktəblərdə erkən tədris dövrlərindən başlamalıdır. Təhsil proqramları ənənəvi və geri qalmış bəzi rolları qadınlara yükləyən stereotipləri aşılamaqdan çəkinməli, bu cür

məzmunlar diqqətlə yoxlanılaraq çıxarılmalıdır.

Son yüz ildə İran qadın məsələsi və xüsusi olaraq hicab mövzusunda dərin bir böhran içində olmuşdur və bu böhran bu günədək davam etməkdədir. Hicab məsələsi, İran cəmiyyətində ikitirəliyi gücləndirən bir mövzuya çevrilmişdir. Bu qarşıdurma, Pəhləvi dövründən başlayaraq məcburi hicab çıxarma əmri ilə modernləşmə məqsədilə avtoritar yanaşma tətbiq ediləndən sonra siyasi bir mövzu olaraq gündəmə gəldi və bu siyasi böhran hələ də ölkədə davam edir.

Azərbaycan Milli Direniş Təşkilatı olaraq, hicab məsələsinə dair mövqeyimiz, ölkənin mövcud siyasi mühitindəki ikitirəlilikdən kənarda yerləşir. Biz inanırıq ki, cəmiyyətin modernləşməsi istiqamətində əsaslı və fundamental addımlar atılmalı və qadınların ictimai işlərdə iştirakı və cəmiyyətdə daha güclü mövqedə olmaları təmin edilməlidir.

Azərbaycan Milli Direniş Təşkilatı qadınların təbii modernləşmə prosesini və onların cəmiyyətdəki mədəni və iqtisadi mövqeyini gücləndirmək üçün bir sıra mühüm proqramları həyata keçirməyi planlaşdırır. Bu proqramlar arasında qadınların iqtisadiyyatda daha fəal rol oynaması üçün maarifləndirmə və təlimlər, qadınların siyasi iştirakını artırmaq və ölkənin siyasi məsələlərində qərar vermə proseslərinə cəlb etmək üçün əsaslı hüquqi addımlar, qadınların beynəlxalq səviyyədə hüquqlarını qorumaq və bu sahədə müxtəlif ölkələrlə birgə layihələr həyata keçirmək kimi məqsədlər yer alır. Həmçinin, medianın və mədəniyyətin qadınları müsbət və bərabər mövqedə əks etdirməsinə dəstək olmaq, qadınlara qarşı ayrı-seçkilik və zorakılığa qarşı qanunların gücləndirilməsi və beynəlxalq əməkdaşlıq çərçivəsində qadınların həyat keyfiyyətini artırmaq üçün təşəbbüslər də təşkilatın prioritetləri sırasındadır.

Qadına qarşı zorakılıq və uşaq evliliklərinə qarşı mübarizə strategik və uzunmüddətli proqramlarla, dövlət və vətəndaş cəmiyyətinin birgə əməkdaşlığı ilə həyata keçirilməlidir. Zorakılığın qarşısını almaq üçün dövlət tərəfindən maarifləndirmə proqramlarının təşkil edilməsi və zorakılığın qarşısını alma tədbirlərinin qanunvericiliklə təmin olunması zəruridir. Hər hansı zorakılığa qarşı güclü hüquqi müdafiə və məhdudlaşdırıcı cəzalar tətbiq olunmalıdır. Həmçinin,

hökumət, vətəndaş cəmiyyəti ilə əməkdaşlıq edərək cəmiyyətdə zorakılıq və diskriminasiyanın qarşısını almaq üçün təbliğat fəaliyyətlərinə dəstək verməlidir.

Bizim baxışımıza görə, hicab məsələsində və ümumiyyətlə qadın məsələsində ideologiyadan kənar yanaşma əsasdır. Dövlət, öz sərəncamında olan yumşaq və sərt vasitələrdən istifadə edərək qadınlara ideoloji yanaşma tətbiq etməməlidir. Belə yönlü bir yanaşma, cəmiyyətdə dərin ikitirəliyə səbəb ola bilər.

Hökumət və əlaqəli qurumlar, o cümlədən qanunvericilik və təhsil qurumlarının gücləndirilməsi, eləcə də vətəndaş cəmiyyətinin dəstəyi ilə qadınların siyasi, elmi, mədəni, bədii və iqtisadi fəaliyyətlərdə iştirakını artırmaq üçün şərait yaradılmalıdır. Qadınların iqtisadi və siyasi sahələrdə və digər sahələrdə rolunun gücləndirilməsi, geyim tərzindən asılı olmayaraq, qadın məsələsi ilə bağlı əsas məqsədlərimizdən biridir.

Uşaqlar, cəmiyyətin ən həssas üzvləri olaraq, təhlükəsiz və sağlam bir mühitdə böyümək üçün xüsusi qayğıya ehtiyac duyurlar. Hər bir uşaq keyfiyyətli və pulsuz təhsil almaq hüququna malik olmalıdır. Təhsil bərabərlik, insan hüquqlarına hörmət və gender və etnik ayrı-seçkilikdən azad anlayışları əhatə etməlidir. Cinsiyyət, mədəniyyət, dil və din fərqliliyindən asılı olmayaraq, hər bir uşaq, Azərbaycan əyalətində şəxsiyyət sənədi almaq hüququna malik olmalıdır. Bu hüquq, hər bir uşağın ayrılmaz və mübahisəsiz hüququdur.

Uşaqlar, fiziki və psixoloji inkişaflarına zərər verə biləcək işlərə məcbur edilməməlidir. Uşaq əməyindən sui-istifadənin və iqtisadi istismarın qarşısını almaq üçün ciddi qanunlar və dəqiq nəzarət mexanizmləri mövcud olmalıdır. Hər bir uşağın keyfiyyətli səhiyyə və tibbi xidmətlərə çıxışı təmin edilməlidir. Bu xidmətlər profilaktik qayğı, peyvəndləmə və fiziki və psixi xəstəliklərin müalicəsini əhatə etməlidir.

Bizim baxışımıza görə, Azərbaycan əyalətinin hökuməti qeyri-hökumət təşkilatlarının köməyi ilə uşaqlara qarşı hər cür fiziki, psixoloji və ya cinsi zorakılığa qarşı mübarizə aparmalı və qanunvericilər tərəfindən müəyyən edilmiş çəkindirici cəzalarla, vətəndaş cəmiyyətinin iştirakı ilə zərərçəkmiş uşaqların

dəstəklənməsi və qorunması üçün proqramları həyata keçirməlidir.

Azərbaycan əyalətində uşaqların təhlükəsiz və uyğun mühitlərdə oyun oynamaq və əylənmək imkanı da olmalıdır. Bu fəaliyyətlər uşaqların — Azərbaycanın gələcəyi üçün sağlam fiziki və psixoloji inkişafı baxımından mühüm əhəmiyyətə malikdir.

## Peşə hüquqları və həmkarlar ittifaqları

Peşə hüquqları işçilərin əsas hüquqlarından biri olaraq sosial ədalətin təminində və insan ləyaqətinin qorunmasında əsas rol oynayır. Bu hüquqlar həmkarlar ittifaqlarının yaradılması və onlara üzv olmaq, kollektiv danışıqlarda iştirak etmək və iş şəraitini müdafiə etmək kimi sahələri əhatə edir. Müstəqil həmkarlar ittifaqları işçilərin real təmsilçiləri olaraq yalnız iş şəraitinin yaxşılaşdırılmasında və əməkhaqqının artırılmasında deyil, həm də iş yerlərində demokratiyanın qorunmasında mühüm vasitə rolunu oynayır.

Azərbaycan cəmiyyətində həmkarlar ittifaqları demokratiyanın təşviqi və insan hüquqlarının müdafiəsində mühüm rol oynayacaqdır. Bu təşkilatlar işçiləri işəgötürənlər və dövlət qurumları qarşısında təmsil edərək, onların əsas hüquq və azadlıqlarının təmin edilməsinə kömək edəcək. Həmkarlar ittifaqları, işçilərin qanuni və insani hüquqları ilə bağlı maarifləndirməni artıraraq, cəmiyyətdə demokratik və insan hüquqları dəyərlərinin inkişafına müsbət təsir göstərəcək.

Hazırda ədalətsiz qanunlar və hakimiyyətə bağlı olan işçi təşkilatları səbəbindən işçi sinfinə qarşı haqsızlıqların şahidi oluruq. Bu haqsızlıqlar, işçilərin çoxsaylı etiraz mitinqlərində öz əksini tapır və onların ağır həyat şəraitini və iş şərtlərini göstərir. Peşə və həmkarlar ittifaqları hüquqlarının təmin olunması üçün milli qanunların, xüsusilə Beynəlxalq Əmək Təşkilatının (ILO) konvensiyaları ilə uyğunlaşdırılması vacibdir. Bu uyğunlaşdırma işçi hüquqlarının səmərəli qorunmasına və möhkəmləndirilməsinə, iş yerində istismar və ayrı-seçkiliyin qarşısının alınmasına kömək edəcəkdir.

Həmkarlar ittifaqlarının yaradılması və inkişaf etdirilməsi əmək siyasətinin əsas prioritetlərindən biri olmalıdır. Bu dəstəyə ixtisaslaşdırılmış təlimlər, hüquqi məsləhətlər və həmkarlar ittifaqlarının fəaliyyətlərini icra etmələri üçün maliyyə və mənəvi dəstək daxildir. Bundan əlavə, Azərbaycanın qanunverici orqanı elə qanun və qaydalar qəbul etməlidir ki, həmkarlar ittifaqlarının yaradılmasına və fəaliyyət göstərməsinə heç bir maneə olmasın və işçilər ayrı-seçkilik və təzyiq qorxusu olmadan bu təşkilatlarda sərbəst şəkildə iştirak edə və öz hüquqlarını müdafiə edə bilsinlər.

## Təhlükəsizlik

Azərbaycan Milli Dirəniş Təşkilatının baxışına görə, İranın federal quruluşunda əyalətlər yerli hüquq-mühafizə və təhlükəsizlik qüvvələrini təşkil etmək səlahiyyətinə və məsuliyyətinə malik olmalıdır. Əyalətlər, bu qüvvələrin maliyyə resurslarını təmin etmək və daxili təhlükəsizlik və asayiş siyasətini müəyyənləşdirmək və icra etmək məsuliyyətini öz üzərinə götürməlidir.

Ölkənin xarici təhdidlərdən müdafiəsi isə tamamilə federal silahlı qüvvələrin üzərinə düşür. Federal hərbi qüvvələrin əyalətlərin daxili işlərinə müdaxilə etmək və xalqı təzyiq altına almaq üçün istifadə edilməsi qəbuledilməzdir və demokratik dəyərlərə ziddir. Əyalətlərin daxili işlərinə hərbi müdaxilənin qadağan edilməsi prinsipi İranın federal konstitusiyasında yer almalıdır. Konstitusiyaya zidd qərarlar qəbul edildiyi halda, əyalətlər öz əyalət ordusunu müdafiə məqsədilə idarəetmə hüququna malik olmalıdır.

Hər bir əyalət ictimai asayişin qorunması və daxili böhranların idarə olunması üçün öz təhlükəsizlik və hüquq-mühafizə qüvvələrini təşkil edə bilər. Bu qüvvələr federal qanunlar çərçivəsində və federal hökumətlə əlaqəli şəkildə fəaliyyət göstərməlidir. Silahlı və hüquq-mühafizə qüvvələrinin strukturu ikisəviyyəli şəkildə fəaliyyət göstərəcəkdir:

Federal silahlı qüvvələr ölkəni xarici təhdidlərdən müdafiə etmək məsuliyyətini daşıyacaq. Bu qüvvələr federal hökumətin birbaşa nəzarəti altında fəaliyyət göstərəcək və federal maliyyə

resurslarından istifadə edəcəklər. Federal hökumət, xüsusən də baş nazir və parlament, bu qüvvələrin idarə və istifadəsinə cavabdeh olacaq. Əyalətlərdə yerləşən qüvvələr federal ordunun bir hissəsi sayılacaq və əsgərlərin hərbi təlimi əyalət hökumətlərinin nəzarəti altında aparılacaq. Başqa sözlə, əyalətlərin orduları birlikdə federal ordunu təşkil edəcək. Federal qüvvələrin əyalətlərin daxili işlərinə qarışmaq hüququ olmayacaq, yalnız fövqəladə vəziyyətlərdə və həmin əyalətin parlamenti və hökumətinin rəsmi tələbi əsasında müdaxilə edə biləcəklər.

Hər bir əyalət, ölkənin federal qanunlarına uyğun olaraq öz polis və təhlükəsizlik qüvvələrini yaratmaqda sərbəstdir. Bu qüvvələr əyalətin coğrafi sərhədləri daxilində ictimai asayişi və daxili təhlükəsizliyi təmin etməkdən məsul olacaqlar. Xarici ölkələrlə sərhədi olan əyalətlərdə bu hüquq-mühafizə qüvvələri gömrük və sərhəd təhlükəsizliyi kimi xarici sərhədlərin təhlükəsizliyinə dair işləri də həyata keçirə bilərlər.

Federal silahlı qüvvələr və əyalətlərin polis qüvvələri milli təhlükəsizliyin və ictimai asayişin qorunması istiqamətində əməkdaşlıq etməlidir. Bu qüvvələrin fəaliyyəti şəffaf mexanizmlər və əyalət və federal parlamentlər vasitəsilə nəzarətdə saxlanılmalı, insan hüquqları, beynəlxalq qanunlar və konstitusiyaya uyğunluq təmin edilməlidir.

Federal silahlı qüvvələrin əyalətlərin daxili işlərinə müdaxiləsi yalnız ictimai asayişin ciddi təhlükə altında olduğu və əyalətin böhranla təkbaşına mübarizə apara bilmədiyi hallarda mümkündür. Hətta bu halda belə müdaxilə əyalət hökumətinin təsdiqi və federal konstitusiya çərçivəsində aparılmalıdır.

Federal ordu, federal hökumətin nəzarəti altında olacaq və bu hökumət parlament sistemi əsasında federal parlamentin və əyalət nümayəndələrinin nəzarəti altında fəaliyyət göstərəcək. Buna görə də, müdafiə və ya xarici əməliyyatlara dair hər hansı mühüm qərar parlamentin təsdiqi ilə qəbul edilməlidir.

## Plüralist və iştirakçı demokratiya

Demokratiya, bir cəmiyyəti idarə etmənin xalqın seçdiyi nümayəndələr vasitəsilə həyata keçirildiyi bir idarəetmə formasıdır və siyasi iştirak, vətəndaşların siyasi proseslərdə fəal iştirakı ilə əlaqəlidir. Bu iştirak seçkilərdə səsvermə, siyasi partiyalara və dərnəklərə üzvlük və etiraz toplantılarında iştirak kimi müxtəlif formalarda ola bilər.

Demokratiya və siyasi iştirak bir-birini tamamlayan anlayışlardır. Demokratiya, insanların siyasi proseslərdə iştirakı ilə daha da güclənir. Bununla belə, hər kəsin siyasi proseslərdə eyni səviyyədə iştirak etmək və təsir etmək imkanı yoxdur. Buna görə də, demokratik sistemin sağlam fəaliyyəti üçün bütün vətəndaşların milliyyətindən, irqindən, dilindən, dini və məzhəb seçiminə, cinsiyyətindən, cinsi orientasiyasından və sosial təbəqəsindən asılı olmayaraq bərabər siyasi iştirak hüququna malik olması vacibdir. Bu, demokratiyanın əsas elementlərindən biridir.

Bəzi hallarda siyasi iştirakın az olması demokratiyanın fəaliyyətini çətinləşdirə bilər və bu, sosial ədalətsizliklərə yol açar. Buna görə də, demokratik bir cəmiyyətdə siyasi iştirakı təşviq etmək və dəstəkləmək vacibdir. Cəmiyyətdə müəyyən təbəqələr kənarda saxlanılır, tanınmır və kimlikləri inkar edilirsə, bu, siyasi iştirakın azalmasına və nəticədə demokratiyanın fəaliyyət səmərəsinin azalmasına səbəb ola bilər. Bunun nəticəsində demokratik sistem zəifləyər, ədalətsizlik və ayrı-seçkiliklər artar və cəmiyyətdə narazılıqlar, münaqişələr və tolerantlığın azalması ilə müşayiət olunan problemlər yaranar.

Çoxmillətli ölkələrdə demokratik cəmiyyətə nail olmaq üçün müxtəlif mədəni və dil qruplarını tanımaq və onların siyasi proseslərdə iştirakını dəstəkləmək vacibdir. Beləliklə, milli və etnik müxtəlifliyin qəbul edilməsi ilə demokratiyanın gücləndirilməsi arasında birbaşa əlaqə olduğu deyə bilərik. İranda ilk addım olaraq müxtəlif millətlərin tanınması və sonrakı addımda qeyri-hökumət təşkilatlarının, vətəndaş cəmiyyəti institutlarının və siyasi partiyaların fəaliyyət göstərməsi üçün şəraitin yaradılması, demokratiyanın təşviqi və siyasi iştirakın artırılması üçün mühüm rol oynaya bilər.

Etnik və mədəni xüsusiyyətlərini qoruyaraq zülmə məruz qalmış millətlərin partiya qurmaq hüququna malik olması insanlara siyasi mühitdə öz səslərini eşitdirməyə və qərar qəbul etmə proseslərində iştirak etməyə kömək edə bilər.

Daha əvvəl qeyd edildiyi kimi, demokratiyanın səviyyəsinin artması və siyasi iştirakın yüksəlməsi ilə mədəni müxtəlifliyin tanınması arasında sıx bir əlaqə mövcuddur ki, bu yalnız İranda deyil, bütün çoxmillətli ölkələrdə də özünü göstərir. Çoxmədəniyyətli və çoxdilli bir cəmiyyətdə mədəni və dil hüquqlarının qorunması sağlam demokratiyanın fəaliyyət göstərməsi üçün əsas bir ehtiyacdır. Fərqli mədəniyyətlərin və dillərin azadlığı və tanınması olmadan çoxmədəniyyətli bir cəmiyyətdə demokratik dəyərlərə çatmaq mümkün deyil.

Plüralist və iştirakçı bir demokratiyada əksəriyyət diktaturası qanuni mexanizmlərlə qarşısı alınır, bütün qrupların və azlıqların hüquqları qanun vasitəsilə təmin edilir və onların iştirak hüququ hüquqi təminatlar altında qorunur. İranın müxtəlifliklərə malik strukturuna cavab verə biləcək demokratiya məhz belə bir demokratiyadır.

## Təhsil

Azərbaycan Milli Direniş Təşkilatının baxışına görə, təhsil hər bir fərdin öz qabiliyyətlərini inkişaf etdirməsi üçün əsas bir hüquq olaraq xüsusi əhəmiyyət daşıyır. Təhsil və təlim sahəsində bərabər imkanların təmin edilməsi, insanların istedadlarına uyğun təhsil almaq hüququ vətəndaşların əsas insan hüquqlarından biridir. Erkən yaşlardan başlayaraq dəstəkçi bir mühit və bərabər imkanların təmin edilməsi, yalnız hər bir vətəndaşın insan ləyaqətini qorumaq baxımından deyil, eyni zamanda, qabaqcıl, yaradıcı və inkişaf edən bir cəmiyyətin əsasını qoymaq üçün də zəruridir.

Müasir təhsil sistemi innovativ və çevik tədris yanaşmalarını qəbul edir və şagirdlərə müəyyən öyrənmə metodlarının zorla öyrədilməsindən çəkinir. Müxtəlif tədris modelləri şagirdlərin fərqli öyrənmə tərzlərinə və ehtiyaclarına uyğun olaraq tətbiq edilə bilər. Məsələn, Azərbaycan əyalətinin gələcək təhsil sistemində, şagird

mərkəzli və sınaq-səhv əsasında öyrənmə metodu tətbiq edilə bilər ki, bu da şagirdlərin düşünmə qabiliyyəti və yaradıcılığını gücləndirər.

Hər təhsil sisteminin keyfiyyəti müəllimlərdən çox asılıdır. Təhsil siyasəti müəllimlərin davamlı inkişafı və təlimini dəstəkləyən yanaşmaya malik olmalıdır. Başqa sözlə, həm müəllimlər, həm də şagirdlər üçün davamlı təhsil təmin edilməlidir. Bu baxımdan, müəllimlərin iş şəraiti, peşəkar inkişaf imkanları və rifahı onların bacarıqlarını artırmaq və motivasiyalarını yüksəltmək baxımından çox təsirlidir. Əgər müəllimlər üçün iş şəraiti və karyera inkişafı baxımından aydın perspektivlər təmin olunmazsa, ölkənin təhsil sistemindən inkişaf və irəliləyiş gözləmək faydasızdır.

İnkişaf etmiş ölkələrin təhsil sistemləri texnologiyadan səmərəli istifadə edərək şagirdlərə daha təsirli tədris imkanları təqdim edir. Təşkilat, şagirdlərin rəqəmsal biliklərini artıran və texnologiyanın təhsildə istifadəsi ilə onların məlumatlara çıxışını genişləndirən siyasətləri dəstəkləyir.

Müxtəliflik və çoxmədəniyyətliliyin artdığı bir dünyada təhsil sistemi mədəni və dil müxtəlifliyini dəstəkləməlidir. Təşkilat, çoxmədəniyyətli təhsil mühitlərini təşviq edən və şagirdlərə mədəni fərqlərə hörmət etməyi öyrədən siyasətləri dəstəkləyərək sosial uyğunlaşma və harmoniya məqsədini güdür. Təşkilatın baxışına görə, çoxmillətli bir ölkə olan İranda vahid bir təhsil sistemi insan hüquqlarının açıq-aşkar pozulması və uşaqlara qarşı ədalətsizlikdir. İranın federal respublikasında əyalət hökumətləri, federal hökumətlə əlaqəli şəkildə, öz cəmiyyətlərinin dili, mədəniyyəti və həyat tərzinə uyğun tədris kitabları və təhsil sistemini hazırlamaq səlahiyyətinə malik olmalıdırlar.

## İnformasiya azadlığı və media

İnformasiya azadlığı, fərdlərin məlumata çıxış, istehsal, paylaşma və ötürmə hüququna əsaslanan bir anlayışdır. İnformasiyanın azad dövranı müasir mənada XVIII əsrdə maarifçilik dövrünün təsiri altında yaranmağa başladı. Maarifçilik dövrünün düşüncə

adamları, azad məlumat mübadiləsi kimi fərdlərin fikir və ifadə azadlığının əhəmiyyətini vurğulayırdılar. XX əsrin əvvəllərindən etibarən informasiya azadlığı daha geniş bir kontekstdə diqqət mərkəzinə keçdi. Xüsusilə İkinci Dünya Müharibəsindən sonra informasiya azadlığı insan hüquqları sənədlərində və beynəlxalq konvensiyalarda əks olunmağa başladı.

Son onilliklərdə internetin geniş yayılması və rəqəmsal kommunikasiya texnologiyalarının inkişafı ilə informasiya azadlığı anlayışı daha da önəm qazandı. İnternetin sürətli məlumat paylaşımı və əldə edilməsini təmin etməsi fərdlərin informasiya əldə etmə azadlığını və ifadə azadlığını gücləndirdi.

Bu gün informasiya azadlığı demokratik cəmiyyətin əsas dayaqlarından biri hesab olunur. Demokratik cəmiyyətlərdə informasiyaya çıxışı asanlaşdırmaq və senzuranı aradan qaldırmaq üçün tədbirlər görülür. İran İslam Respublikası isə əvvəldən etibarən peyk televiziya kanalları, video cihazları, sosial şəbəkə platformaları və ümumiyyətlə, sürətli kommunikasiya texnologiyası olan interneti özünə təhlükə olaraq görmüş və bu vasitələrə çıxışı mümkün qədər qadağan, senzura və filtrləmə ilə məhdudlaşdırmağa çalışmışdır ki, vətəndaşların rabitə vasitələrinə çıxışında çətinlik yaratsın.

Ümumiyyətlə, totalitar rejimlər informasiya axınını sərt şəkildə nəzarət altında saxlamağa meyllidirlər və buna görə də televiziya, radio və mətbuat tamamilə hakimiyyətin inhisarında olur. Lakin internetin istifadəçi yönümlü xüsusiyyəti, xüsusilə sosial şəbəkə platformalarının qlobal xarakteri, İran İslam Respublikası üçün bu azad informasiya axını sistemini tam inhisara almağı çətinləşdirib. Bu səbəbdən rejim çıxış yolunu bu platformalardakı məzmunları senzura etmək, filtrləmək və nəzarət altına almaqda görür.

Müasir dövrdə qloballaşmanın təsiri ilə informasiya texnologiyaları və rəqəmsallaşma sürətlə inkişaf edir və gələcəkdə rabitə qurğularını inhisara almaq mənasız və faydasız olacaq. Sosial şəbəkələrin və internetin istifadəçi yönümlü olması cəmiyyətin müxtəlif təbəqələrinin səslərinin eşidilməsinə imkan yaradır. İnternet dövrü və məlumat yaymaq üçün az maliyyətli imkanlar, İranda qeyri-fars millətlərin azadlıq və ədalət tələblərini səsləndirən siyasi və mədəni fəallar üçün səslərini yaymaq imkanı yaratmışdır. İranda

ikili ayrı-seçkilik hədəfinə çevrilmiş qeyri-fars millətlər, azad ifadə hüququndan məhrum olmaqla yanaşı, media inhisarı səbəbindən öz mədəniyyət və dillərini yaymaq üçün rabitə vasitələrindən istifadə imkanını da itirirlər. Buna görə internet dövrü, hər nə qədər məhdud da olsa, qeyri-fars millətlər, qadınlar, işçilər və cinsi azlıqlar kimi digər kənarda qalmış təbəqələr üçün öz səslərini çatdırmaq üçün yeni bir şərait yaratmışdır.

Digər tərəfdən, demokratik sistemlərdə informasiya azadlığından qorxulmur, əksinə, bu azadlıq təşviq edilir. Demokratik ölkələrdə radio və televiziya siyasi hakimiyyətin inhisarında deyil, digər siyasi partiyalara və özəl televiziya və radio kanallarına fəaliyyət göstərmək imkanı tanınır. Media azadlığını dəstəkləmək üçün media qurumları və jurnalistlər müstəqillik və ifadə azadlığına malik olmalıdırlar. Media qurumlarının senzura və təzyiqdən azad olması, cəmiyyətin müxtəlif baxışlara və məlumatlara sərbəst şəkildə çıxışını təmin edir.

Azərbaycanda informasiya azadlığının təmin edilməsi üçün atılacaq ilk addım ifadə azadlığının və ifadədən sonrakı azadlığın qorunmasıdır. Hüquqi islahatlar vasitəsilə fərdlər öz fikirlərini sərbəst şəkildə ifadə edə bilməli və media vasitəsilə düşüncələrini ifadə etdikləri üçün heç bir nəticədən qorxmamalıdırlar. İkinci addım olaraq senzura, filtr və nəzarət maneələri aradan qaldırılmalıdır ki, insanlar sərbəst şəkildə məlumatlara çıxış əldə edə və fikirlərini azad şəkildə yaya bilsinlər. Hal-hazırda ən vacib və populyar media vasitəsi olan internetin, eyni zamanda gələcəyin ən geniş istifadə olunan platforması olma ehtimalı ilə, əlçatanlığı artırılmalı, habelə internetin infrastrukturunun təkmilləşdirilməsi və sürətinin artırılması da İran Federal Respublikasının gündəliyində yer almalıdır.

## Cinsi azlıqlar

Azərbaycan Milli Direniş Təşkilatı cinsi azlıqların hüquqlarının qorunmasını və onların bərabərliyinin təmin olunmasını İslam Respublikası sonrası gələcəkdə vacib hesab edir. Biz inanırıq ki, hər bir fərd, cinsi meyli və ya cinsi kimliyindən asılı olmayaraq, ayrı-

seçkiliyə məruz qalmadan sərbəst yaşamaq hüququna malikdir. İnsan hüquqları prinsiplərinə əsaslanan qanunlar əksəriyyətin xeyrinə deyil, bütün azlıqların, o cümlədən cinsi azlıqların hüquqlarını təmin edəcək mexanizmlərlə dəstəklənməlidir.

**Cinsi Azlıqların Hüquqları**

Cinsi azlıqlar digər vətəndaşlar kimi bərabər hüquq və imkanlardan, o cümlədən arzuladıqları peşədə çalışma hüququndan istifadə etmək haqqına malikdirlər. Onlar cinsi meyilləri və ya cinsi kimlikləri səbəbilə ayrı-seçkiliyə məruz qalmadan ədalətli və bərabər bir cəmiyyətdə yaşamalıdırlar. Cinsi azlıqların həyat şəraitinin yaxşılaşdırılması üçün əsas yollarından biri beynəlxalq ictimaiyyətlə əməkdaşlıqdır. Cinsi azlıqların hüquqları ilə bağlı konvensiyalara qoşulmaq, bu sahədə qlobal norma və standartların tətbiqini təmin edir və insan hüquqlarının pozulmasının qarşısını almaq üçün mühüm bir addımdır.

Azərbaycan əyalət hökuməti və İran Federal Respublikası hökumətinin LGBT hüquqları ilə bağlı beynəlxalq konvensiyalara qoşulması ilə Cənubi Azərbaycan əyalət hökuməti və İran Federal Respublikasının parlamentlərində oxşar qanunların qəbul edilməsi üçün hüquqi zəmin yaranır.

Ölkədə cinsi azlıqların cinsi meyilləri və cinsi kimlikləri rəsmi olaraq tanınmır. Qanunlar çox vaxt heteroseksual norma əsasında qurulub və cinsi azlıqlar inkar edilir. İran İslam Respublikası cinsi meyillər və cinsi kimliklərlə bağlı sərt cəza qanunlarını tətbiq edir ki, bu da ciddi cəzalarla nəticələnir. Güney Azərbaycanda və ümumiyyətlə, İran Federal Respublikasında bu qrupun hüquqlarının müdafiəsi üçün hüquqi islahatlar həyata keçirilməlidir. Effektiv qanunvericilik mexanizmlərindən əlavə, qeyri-hökumət təşkilatları da sosial maarifləndirmə və cinsi azlıqların hüquqlarının müdafiəsi üçün mühüm rol oynayacaq.

## Heyvan hüquqları

Cəmiyyətdə heyvan hüquqlarına qarşı maarifləndirmə və həssaslığın

artırılması sosial inkişaf və tərəqqi üçün böyük əhəmiyyət daşıyır. Cəmiyyətin heyvanlara qarşı daha həssas və məsuliyyətli yanaşması ədalətli və insani bir cəmiyyətin formalaşmasına kömək edir. Heyvanların sağlam həyatı insanların sağlamlığı və həyat səviyyəsi ilə birbaşa əlaqəlidir. Heyvanlara qarşı pis rəftar və ya laqeydlik cəmiyyətdə insanların fiziki və psixoloji sağlamlığına mənfi təsir göstərə bilər.

Səhhət problemləri, xəsarətlər və ya xəstəliklər küçə heyvanlarının sağlamlığına mənfi təsir göstərə bilər. Bu vəziyyət ictimai sağlamlıq problemi halına gələ bilər.

Küçə heyvanlarına qarşı pis rəftar və ya onların kifayət qədər qidalanmaması ətraf mühitin çirklənməsinə səbəb ola bilər. Məsələn, onların tullantılarla qidalanması ətraf mühiti çirkləndirə və həmçinin ətraf mühit və insanların sağlamlığı üçün təhlükə yarada bilər.

Pis rəftar olunan və ya laqeyd qalan heyvanlar insanlar ilə arzuolunmaz münasibətlərin yaranmasına səbəb ola bilər. Bu heyvanlar aqressiv xarakter alaraq insanlara zərər verə bilər və ictimai təhlükəsizliyi təhdid edə bilərlər. Küçə heyvanlarının nəzarətsiz çoxalması onların sayının idarə olunması ilə bağlı problemlərə gətirib çıxara və ətraf mühitin sağlamlığına mənfi təsir göstərə bilər və şəhərlərdə sosial problemə çevrilə bilər.

Bu səbəbdən, heyvan hüquqları və heyvanların sağlam həyat şəraitinin təmin edilməsi təkcə heyvanların əzabsız həyat sürməsi üçün deyil, həm də cəmiyyətin rifahı üçün xüsusi əhəmiyyət kəsb edir.

Heyvan hüquqları ilə bağlı təlim və maarifləndirmə insanlarda heyvanlara qarşı məsuliyyət və həssaslıq hissini artırır və daha ədalətli, insani bir cəmiyyətin formalaşmasına kömək edir.

Sağlamlıq və ekosistemlə bağlı məsələlərdən əlavə, heyvanlara qarşı pis rəftar cəmiyyətimizin əxlaqi dəyərlərinə ziddir və digər tərəfdən heyvan hüquqlarına riayət etmək cəmiyyətdə əxlaqi dəyərlərin möhkəmlənməsinə, şəfqət və yardımlaşma hissinin artmasına səbəb olur.

# Azərbaycan Milli Dirəniş Təşkilatının

## Strateji Sənədi

İkinci nəşr

www.diranish.com www.araznews.org